İctimai, elmi, ədəbi-bədii, mədəni, əyləncəli

ailənizin qəzeti

# Xəmsə

www.khamsa.az

27 mart - 3 aprel 2005-ci il (12/16)

Qiyməti 1000 manat

**TV- PROQRAM** səh. 7, 10

**Viktorinaya cavab verin, musiqi mərkəzi qazanın!** səh. 13

**SKANVORD** səh. 14



# AŞIQ ƏLƏSGƏR SAZ-SÖZ BAYRAMI



***"Bəli, həmin bu 70 il müddətində bizim xalqımızın böyük itkiləri olubdur. Biz bunları bilməliyik, gələcək nəsillər də bilməlidirlər ki, Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, təcavüzlərin qarşısı alına bilsin".***

**Heydər Əliyev**

# "Mən yanmasam, sən yanmasan, nasıl çıxar qaranlıqlar aydınlığa" və ya bir sənədin izi ilə


ERMENILERIN YAPTIGI KATLIAMLA ILGILI ABDULYANSK KAYMAKAMININ AZERBAYCAN HÜKÜMETI FEVKALADE SORUŞTURMA KURULUNA GÖNDERDIGI YAZI

Bu yaxınlarda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında növbəti müsahibimdən ayrılarkən bir xanım "Xəmsə" qəzetinin əməkdaşı olduğumu bilib mənə yaxınlaşdı və özünü təqdim etdi: "Akademik Milli Dram Teatrının redaktoru və mətbuat katibi Vəfa xanım Məmmədkamal qızı". O, babası Məşədi Şamxal Quliyevin 1918-ci il mart hadisələrinin günahsız qurbanlarından biri olduğunu bildirdi. Eyni zamanda Vəfa xanım nəzərimə çatdırdı ki, onun nəvəsinin dediyinə görə, o illərdə müsavat hökumətinin təşkil etdiyi fövqəladə komissiya zərərçəkmiş ailələrin üzvlərini aramış, təsadüfən sağ qalmış ailə üzvlərini dindirərək dillərindən izahatlar almış, bu izahatlar ailə üzvlərinin qolları, savadı olmayanlarısa mürəkkəbli barmağı sənədə basması ilə təsdiq olunmuşdur.

Bu komissiya Məşədi Şamxal Quliyevin də ailəsində olmuş, bu faciəni sənədləşdirmişdir. Vəfa xanım bu sənədin izi ilə Şamaxı Diyarşünaslıq Muzeyində olmuş, orada nə bu faktı,


AZERBAYCAN HÜKÜMETİ FEVKALADE SORUŞTURMA KURULU OLUŞTURULMASI

153 11 20

ВЫПИСКА

изъ журнала постановленій Правительства Азербайджанской Республики отъ 15-го Іюля 1918 г. года.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| Докладъ Министра Иностранныхъ Дѣлъ объ организаціи Чрезвычайной Слѣдственной Комиссіи для разслѣдованія насилій, произведенныхъ надъ мусульманами и ихъ имуществомъ.- | Докладъ Министра Иностранныхъ Дѣлъ одобрить и поручить ему организовать Чрезвычайную Слѣдственную Комиссію для разслѣдованія насилій, произведенныхъ надъ мусульманами и ихъ имуществомъ въ предѣлахъ всего Закавказья со времени начала Европейской войны.- |

Съ подлиннымъ вѣрно:

Помощникъ Секретаря

15.7.1918
BCA. 930 01. 2-27-1
ASPİHDA. 277-2-27

nə də ümumilikdə 1918-ci il mart faciələrini əks etdirən bəsit eksponatlardan ibarət ekspozisiya zalından başqa heç nə ilə rastlaşmamışdır. Bu işi öz öhdəsinə götürən Vəfa xanım "Azərbaycan Siyasi Partiyalar Arxivi"nin direktoru Ataxan Paşayevlə görüşüb, qanlı faciəni təsdiq edən tarixi sənədlərin surətini və Ankarada nəşr olunan "Azərbaycan belgelerinde Ermeni sorunu (1918-1920)" və Ataxan Paşayevin "Açılmamış səhifələrin izi ilə" kitabını əldə etmişdir. O, bu kitabları, tarixi sənədləri Şamaxı Diyarşünaslıq Muzeyinə təqdim edəcək. Həmin kitablarda qaniçən ermənilərin Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda Bakıda və s. şəhər və kəndlərdə həyata keçirdikləri dəhşətli vəhşiliklər haqqında geniş məlumatlar verilir və erməni xisləti ifşa olunur.

A.Paşayevin "Açılmamış səhifələrin izi ilə" kitabında rast gəldiyim bəzi məqamlar:

"Ermənilər yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyir, evlərə soxulur, sakinləri qətl və qarət edirdilər. Gecə müsəlmanlar təslim olmaq barədə ermənilərin yanına nümayəndələr göndərir və sülh xahiş edirlər. Lakin atəş dayandırılmır. Şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağla-



sığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Öldürmək və evlərini yandırmaq hədəsi ilə ermənilər azərbaycanlılardan onların pul və qiymətli şeylərini alır, lakin pul və qiymətli şeylərini ermənilərə verməmələri belə azərbaycanlıları ölümdən və evlərini yandırılmaqdan xilas edə bilmirdi. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla təhqir olunmuşdular. Küçələrdə diri-diri yerə mıxlanmış uşaq meyitləri atılıb və talan edilmiş əmlak araba və furqonlarla erməni kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam edir. Ermənilər xilas olmaq üçün Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışdılar. Hacı axundun tamamilə yandırılmış evinin həyətində Fövqəladə Təhqiqat Komissiyasının üzvləri çoxlu xırda insan sümükləri aşkar etmişdilər. Meyitlərin iri sümüklərini isə türklər 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən yığıb basdırmışdılar. Komissiya üzvlərinin 1918-ci ilin oktyabr-noyabrında bu barədə hazırladığı məruzədə qeyd olunurdu ki, həyətdə hələ indi də çürümüş meyitlərin iyi qalmaqdadır".

1919-cu il aprel ayının 3-də Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbristan, Mədrəsə, Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin adı daxil edilmişdir. Bu aktlarda olan rəqəmlər üzrə bizim hesablamamıza görə, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur.

1933-cü il aprel ayının 1-də Almaniyanın Münhen şəhərində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "İstiqlal" qəzetinin 31-ci nömrəsində həmin hadisələrin 15 illiyi münasibətilə çap olunmuş məqaləsində oxuyuruq: "1918-ci il 22 martda Bakının "İsmailiyyə" binasının möhtəşəm salonunu milli musiqi, tans, qəhqəhə, sevinc və gülüş titrədirdi. Novruz bayramı qarşılanmaqda idi. Bir həftə sonra, 31 martda isə bu tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatları ilə, kitabxana, qiraətxana, yetimlər yurdunun yerləşmiş olduğu bu qoca saray quru bir kabus halında matəm içərisində idi. Yandırılmışdı. Yandırılan bir tək "İsmailiyyə" deyildi. Türklərə məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatro binaları, məktəblər, xəstəxanalar, camilər, milli-mədəni müəssisələr yerlə yeksan edilmişdi. Bir həftə içərisində Bakı bütün simasını itirmişdi. 31 martda 15 min günahsız türk kəsilmişdi. Günün qəhrəmanları: Şaumyan, Avakyan, Araketyan, Ter-Mikaelyan, Saakyan, Lalayan, Amazasp,



Əmiryan və başqaları idi.

Əlində Lenin və Stalinin 13 nömrəli dekreti olan Stepan Şaumyan həmin dekretə "Böyük Hayastan"a müqabil Azərbaycanı "Sovetizə" edərək burada Moskva hakimiyyətini quracaqdı. Bunun üçün silahlı erməni qüvvələrinə dayanaraq türkləri kəsirdi. O mart günlərini fotoqraf vasitəsilə təsbit etmiş bir çox iranlı, polyak, gürcü tanıyıram və bunların heç birindən olmayan M.Kulqe adlı bir əcnəbi hadisələri belə anladır: "Yalnız müsəlman əhali tərəfindən məskunlaşmış məhəllələri qırıb əhalini öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, evlərə atəş vurur, cocuqları bu atəşlərə ataraq diri-diri yaxır, 3-4 günlük südəmər cocuqları isə süngülərinə taxırdılar.



Hadisələrdən sonra torpağa gömülmüş 57 islam nəşi bulundu. Bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdi. Öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq üryan bir halda küçələrdə qabaqlarına qatıb sürür və özlərini tüfəng dibçəkləri ilə vururdular. Kimsəyə rəhm edilmirdi. Cocuqlara rəhm edilmədiyi kimi, ixtiyarlara da aman yoxdu. Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası, 60-70 yaşında qadınları öldürülmüş və 25 yaşında təzə gəlini diri-diri divara mıxlanmışdı..." Bir sözlə, Moskva Azərbaycanda sosializm və kommunizm qurmaqda idi. Bu fotoqraflar çox faciəli mənzərələr əks etdirirlər:

Mələk qədər sevimli bir azəri yavrusu Bakının bir divarına çivilənmişdir və çiv yavrunun ta qəlbini dəlib keçməkdədir. Bir yığın qızlı-erkəkli cocuq ölüləri üzərində



qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir. Çılpaq bir qadın yerə sərilmiş, ölmüş…bu ölü vücudu canlı bir yavrucaq əmməkdə idi…

31 mart hadisələrinin xatirələri yalnız bunlar deyildir. Mən hələ on minlərlə azəri qız və qadınlarının əsir sürüsü halında götürüldüyünü, "Rekord" teatrosunun o gün məhşəri andıran mənzərələrini, əsir bazarlarında azəri qızlarının satıldıqlarını və s. demirəm.

Çünki 31 martı xatırlamaq və canlandırmaq üçün bu qədər də kafidir, bu qədər də bəsdir". (M.Ə.Rəsulzadə)

Vəfa xanımla, onun mənə təqdim etdiyi tarixi sənədlərin əsasında tərtib olunmuş 1918-ci il mart qırğınlarını, soyqırımını geniş şəkildə əks etdirən qiymətli kitablarla tanışlığımdan sonra belə bir qənaətə gəldim. Zənnimcə, bu gün 1918-ci il faciələrini, azərbaycanlıların soyqırımını geniş ictimaiyyətə lazımi səviyyədə çatdırmaq üçün bu faciəni əks etdirən tarixi sənədlərə söykənən yeni-yeni bədii və elmi əsərlər yazılmalı, tamaşalar hazırlanmalı, bədii və sənədli filmlər çəkilməlidir. Habelə dəhşətli faciəni əks etdirən məzmunlu rəsm əsərləri çəkilməli, bu tablolar yalnız "soyqırımı günləri" ərəfəsində sərgi salonlarında 5-10 günlük ömür sürüb, yenidən emalatxanalara qayıtmamalıdır.

***Xanım Novruzqızı***


ERMENILERIN YAPTIGI KATLIAMLA ILGILI ABDULYANSK KAYMAKAMININ AZERBAYCAN HÜKÜMETI FEVKALADE SORUŞTURMA KURULUNA GÖNDERDIGI YAZI

# «Bakı məhəlləsi» Moskvada




Moskva şəhərinin hay-küylü guşəsində - Stromınkada qonaqların ürəklə üz tutduqları bir guşə var. İşıqlı, geniş və bər-bəzəkli zallar çox rahat və gözoxşayandır. Ən əsası odur ki, burada günün hər vaxtında, gecə saat 12-dən sonra da yaxşı istirahət etmək mümkündür. Ləziz Azərbaycan, Ukrayna, Qafqaz, rus, Avropa və Şərq yeməkləri hər kəsin ürəyincə olur. Zalın təbii daşdan hazırlanan və qayanı xatırladan hissəsində şəlalə axıb elə bir gözəl mənzərə yaradır ki, adam bütün yorğunluğunu unudur. Sanki Azərbaycanın, Bakının bir guşəsini Moskvada yerləşdiriblər. Pilləkənlərə və döşəmələrə qədim Azərbaycan illəri ilə naxışlanmış xalçalar döşənib. Qız Qalasının, paytaxtımızın digər füsunkar mənzərələrinin şəkilləri ilə bəzədilən foye, salon və zallar ailə şənlikləri üçün çox yararlıdır.



***Rəcəb Ağayev***



# BU NƏ HİCRAN Kİ, YETİŞMƏKDƏ VÜSAL ƏTRİ MƏNƏ?..

## On birinci İran Səfərnaməsi

**Şahin FAZİL,**
**tarix elmləri doktoru, professor**

### SƏKKİZİNCİ MƏQALƏ

**24 dekabr.** Sübh tezdən avtobusla Tehranın 40 km.-liyində yerləşən Kərəc şəhərinə yollandıq. "Karxaneye-Soha" ("Soha fabriki") adlı bir dərmandüzəltmə müəssisəsinə gedirik. D-r Həsən Həbibinin dəvətiylə. Orada böyük bir yığıncağımız olmalıdır.

Yarım saatlıq yolu iki saatdan çox bir vaxt ərzində qət etdik. Maşın tıxacları. Bakıda olduğu kimi. Şəhərlər böyüyür, maşınların sayı artır. Tehran onsuz da böyük şəhərdir, lap böyükdür. Tehranda yaşayan əhalinin sayı bizim Azərbaycan əhalisinin sayından iki dəfə çoxdur.

Nəhayət ki, gəlib çatdıq Kərəcə. "Karxaneye-Soha". Dəyirmi masa ətrafında əyləşdik. Aparıcı elan etdi ki, d-r Həbibinin çıxışından sonra sizin hər birinizin qısa çıxışınız olacaq və xahiş olunur ki, II İranşünaslıq konfransı barədə öz təəssüratlarınızı bildirəsiniz.

D-r Həsən Həbibi bir saatdan çox danışdı. Tacikistandan prof. Eyni, d-r Xodayi Şərifov, Məqribdən Əhməd Musa, Qazaxıstandan xanım Aliyə Qəmbərbekova, Türkiyədən Erdoğan Erol, Çindən d-r Feng Veng, Rusiyadan Yelena Molçanova, Pakistandan d-r Əltaf Əli Sultan, d-r Qulam Nəbi Şahed Çuhədri, Hindistandan d-r Səfəvi, Azərbaycandan Təhminə xanım Rüstəmova, Yusif Rüstəmov, Vaqif Buduqlu, Ziyafət, Şəfəq Əlibəyli, Qasım Hacıyev, Qabil Camalov, Nəsib Göyüşov, Möhsün Nağısoylu, Fərid Ələkbərov və mən çıxış etdik.

D-r Həsən Həbibi bütün bu çıxışlardan sonra bir də söz aldı və hamımıza öz təşəkkürün bildirdi: "Bizə göndərilən 3000 məqalədən yalnız 500-ə qədərini seçdik və sizi bu konfransa dəvət etdik".

Görüşün rəsmi hissəsi bitdi və "Karxaneye-Soha"nı gəzməyə başladıq. Mənə məlum oldu ki, bu fabrik d-r Həsən Həbibinin xanımınındır və bizi Kərəcə o dəvət etmişdir.

Ziyafətdən sonra xanım Həbibi və qızı bizimlə şəxsən tanış oldu və öyrəndik ki, o, Bakıda doğulmuş, sonradan anası ilə birlikdə İrana köçmüşdür.

Axşam hava qaralanda Tehrana qayıtdıq. Bu gecə Bakıya uçmalıyıq. Uçuş gecə saat dördün yarısında olmalıdır. Arada olan vaxtdan istifadə edib, bu səfərin son şerini yazdım:

Gah gülüstanə səfər, gah da biyabanə səfər,
Əvvəl-axır edəcəkdir məni divanə səfər.

Qürbət ellərdə çox oldum, dönürəm yurda tərəf,
Tərk edib vəslimi etdim neçə hicranə səfər.

Arabir qonşularım etmədə rişxənd mənə:
"Nə həşirdir eləyirsən belə hər yanə səfər?"

Söylərəm: "Getməliyəm Məkkəyə həm inşallah,
Şövq ilən etməliyəm mən Ərəbistanə səfər".

Amma çəkməkdə məni indi Vətən gülzarı,
İstərəm indi edim doğma gülüstanə səfər.

Dedilər: - Sanki cavandır qoca Şahin Fazil,
Edəcəkdir hələ çoxmu qoca İranə səfər?

Budur, İrana olan 11-ci səfərim başa çatmaq üzrədir. Qeyd etməliyəm ki, mənimlə birlikdə Tehrana gəlmiş bütün elmi heyət üzvlərimiz, həqiqətən də, çox mədəni, ixtisaslarını mükəmməl bilən, elmin müxtəlif sahələrinə dərindən bələd olan insanlardır. Mən bu məqalənin müxtəlif yerlərində olanların bəziləri barədə müəyyən məlumat verdim. Möhsun Nağısoylu və Nəsib Göyüşov imzaları şərqşünaslıq elmimizin tarixinə artıq çoxdan düşmüşdür. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Vəfa Hacıyeva Nizamişünas alim kimi diqqətimizi özünə cəlb etdi. Onun onomastika üzrə 40-50 elmi məqaləsi və bir kitabı çap olunub. O ki qaldı Elmira Məmmədovaya, bu nərmənazik qız Qərbi Azərbaycandan Bakıya gələrək Bakı Dövlət Universitetinə qəbul edilmiş, bakalavr (1999) və magistr (2001) pillələrini fərqlənmə diplomu ilə adlamış, aspiranturaya daxil olmuş (2001), "Müasir Kipr türk poeziyasının formalaşmasında Osman Turkayın rolu" adlı mövzunu bitirməkdədir.

Mən nümayəndə heyətimizin bütün üzvlərinə gələcəkdə də uğurlar diləyirəm və inanıram ki, belə də olacaq.

Deməli, əlvida, Tehran! Əlvida, qonaqpərvər İran xalqı!

Deyirəm, hələ bilmirəm, bəlkə də, Allah qismət eləsə, İran diyarına yenə gedəcəyəm, on ikinci, on üçüncü... səfərnamələr yazılacaq, çoxlu elmi məqalə və şer qələmə alacağam.

***Xüdahafiz, ey İran və on ikinci səfərədək!***

**Bakı - Tehran - Bakı**
**2-7 yanvar, 2005**

# M A R A Q L I

## Qaraj, mətbəxə keç

Adətən valideynlər uşaqları dünyaya gəldikdən sonra ad seçimində xeyli baş sındırmalı olurlar.



Avstraliyalı Brenda ilə Con bundan çıxış yolu üçün orijinal variant seçiblər. Belə ki, onlar böyük övladlarının adını Mətbəx, ikincinin adını isə Qaraj deyə çağırırlar. Belə görünür, cütlüyün daha bir övladı dünyaya gələrsə, onun adını Qonaq otağı qoyacaqlar. Çünki ər-arvadın bundan başqa seçimi qalmayacaq.

## Arvadının ağzını tikib

37 yaşlı Kurta Mizeski çoxdanışan arvadını cəzalandırmaq üçün qeyri-adi cəza üsulu tətbiq edib. Deyingən həyat yoldaşının tənələrindən bezən Kurta çox götür-qoydan sonra belə qərara gəlib ki, arvadının ağzını birdəfəlik tiksin. O, qadının etirazına baxmayaraq, metal skripka ilə dodaqları bir-birinə birləşdirib. Bu üzdən məhkəməyə düşən əzazil əri hakim 14 il azadlıqdan məhrum edib. İnzibati işlə cəzasını çəkəcək Kurta qazancını arvadına verəcək. Belə ki, onun arvadı ağzında plastik əməliyyat keçirəcək. Hazırda Kurta məvacibini əməliyyat üçün açılan hesab nömrəsinə köçürür.

## 15 dəqiqəlik hamiləlik

45 yaşlı Linda Bentli hamilə olduğunu aydınlaşdırandan 15 dəqiqə sonra ana olub. Buna qədər Linda elə güman edib ki, mədə şişməsindən əziyyət çəkir. Özünü pis hiss edən qadın 9 aydan sonra ağrılarının gücləndiyini hiss edərək həkimə müraciət etmək qərarına gəlib. Maraqlıdır ki, Lindanı müayinə edən həkimlər onun hamilə olduğunu aşkar edə bilməyiblər. Həkimlər Lindaya yumurtalıqlarında kista olduğunu bildiriblər. Xəstəxanada əməliyyata götürülən Lindaya uzun çək-çevirdən sonra düzgün diaqnoz qoyulub. Gözlənilməz xəbərdən sarsılan Lindanın 15 dəqiqədən sonra oğlu dünyaya gəlib.



## Qız doğan ananı mükafat gözləyir

Almaniyada yerləşən Ludelberq qəsəbəsi bütün dünyada məşhurdur. Məsələ burasındadır ki, dəniz 644 metr yüksəklikdə yerləşən bu kənddə mövcud olduğu vaxtdan bəri bir nəfər də olsun qız uşağı doğulmayıb. Uzun illərdir dünya alimləri ludelberqlilərin dünyaya dünyaya yalnız oğlan uşağını gətirmələrinin səbəbini aydınlaşdırmağa cəhd göstərirlər.



İndi kənd əhalisi səbirsizliklə yayın gəlişini gözləyir. Məsələ burasındadır ki, avqustda dünyaya daha bir ludelberqli gələcək. Kənd sakinləri körpənin qız və ya oğlan olacağı barədə həmişə olduğu kimi yenə də mübahisə edirlər. Kənd rəhbərliyi isə dünyaya qız gətirən anaya mükafat verəcəyini vəd edib.

## Ağcaqanadların ən dadlı yemi

Alimlər dünyaya övlad gətirmək istəyən qadınlara hamiləliyi qışa saxlamağı məsləhət görürlər. Britaniya alimləri apardıqları araşdırmaların nəticəsində "yayın bəzəyi" olan ağcaqanadların bətnində uşaq gəzdirən qadınlara daha çox hücum çəkdiklərini müəyyən ediblər. Hamilə qadın havaya daha çox kimyəvi element



ifraz edir. Ağır qarın daşıdığına görə hamilə qadın tez-tez tərləyir. Tərli bədən isə ağcaqanadların ən dadlı yemidir.

## Ölü arvadından əl çəkmək istəmir

İspan şəhəri Barselona məhkəməsi 62 yaşlı Mariya Oridaloya ərinin qeyri-adi vəsiyyətini yerinə yetirməyə razılıq verməyib. Buna səbəb mərhumun arvadına etdiyi vəsiyyətin mümkünsüzlüyü olub. Belə ki, arvadını həddindən çox sevən 67 yaşlı Antonio o dünyaya köçməzdən öncə sevimli arvadına vəsiyyət edib ki, öləndən sonra onun dərisini soydurub özünə əl çantası düzəltdirsin. Onun fikrincə, bu halda arvadı ondan



heç vaxt ayrılmaz. Ancaq bunu eşidən mərhumun qohumları qəti etirazlarını bildiriblər. Əlacı kəsilən Mariya məhkəməyə müraciət etməyi qərara alıb. Ancaq Mariyaya vəsiyyəti yerinə yetirməyə burada da icazə verilməyib.

## Təkzib

**"Xəmsə" jurnalının ilk 2004-cü il oktyabr buraxılışında şair Nəbi Xəzrinin söylədiyi xatirələrdən birində - "Kərbəlada Zeynalabdin Tağıyevin çilçıraqları" yazısında gedən yanlışlığa görə şair və redaksiya heyəti adından oxuculardan üzr diləyirik. Xalqımızın mənəvi inkişafında danılmaz və əvəzsiz xidmətləri olmuş Əlibəy Hüseynzadənin vətəni Salyan şəhərinin iqtisadiyyatı, mədəniyyəti, adət-ənənələri, spesifik xüsusiyyətləri haqqında hər zaman jurnal və qəzetimizdə müxtəlif materiallar çap etməyə hazırıq. Bu barədə Salyan ziyalılarının bizə göndərdiyi yazılar xüsusi diqqət mərkəzində olacaq.**

***Redaksiya heyəti***

**Hazırladı:** ***Rəcəb Ağayev***

**ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33**

# Əks cinslərin izdivacı

**Son illər bütün dünyada evlənmək istəyən əks cins nümayəndələrinin sayı olduqca artıb. Bir-birilərilə nikah kəsdirib yaşamağa can atan belə qızlar və "kişi"lərin arasında, əfsuslar olsun ki, azərbaycanlı olanı da az deyil.**

Məlumdur ki, bir çox kişilərimiz qazanc məqsədilə Rusiyanın müxtəlif şəhərlərinə üz tuturlar. Amma gəlin görək getdikləri yerdə bu insanların hamısı məhz pul qazanmaqlamı məşğuldur? Təkcə Moskva şəhərində 6 azərbaycanlı "kişi" evlənmək niyyətilə "Nikah evi"nə müraciət edib. 2004-cü ildə bu fakt taciklər arasında 16, ermənilər arasında 14, belaruslar arasında 6, özbəklər arasında 18, ukraynalılar arasında 8, türkmənlər arasında 20, qazaxlar arasında 12, baltikyanı regionlardan gələnlər arasında 14…olub.



1960-cı il üçün Azərbaycanda belə "kişi"lər 2 nəfəri təşkil edib. Onlardan biri keçmiş Azərbaycan Dövlət Universitetinin afrikalı tələbəsi Nikoya Xoss məsələ məlum olan kimi təhsil aldığı universitetdən xaric edilib. İkinci şəxs isə xəstələnərək, xəstəxanada o dünyalıq olub.

Bu hal qızların içində də çox yayılıb. 1971-ci ildə Azərbaycanda öz aralarında nikah kəsdirmək istəyən qızların yaratdığı "Bürc altında" təşkilatının 4 nəfər 19 yaşlı üzvü 1972-ci ildə nikah kəsdirdilər. Bu təşkilat 1 il müddətində 13 nəfəri öz sıralarına qata bilmişdi. Güclü təbliğat vasitəsilə öz sıralarını genişləndirməyə çalışan belə insanlara xaricdən müxtəlif vəsaitlər də, məsələn, kinolar, kitablar, xüsusi alt paltarları və s. ötürülür. Sevindirici haldır ki, Azərbaycana, Özbəkistana, Moldovaya, Belarusa, Rusiyaya və s. ölkələrə göndərilən belə gizli materiallar çox zaman ələ keçir və yerindəcə zərərsizləşdirilir. Lakin yenə də olsa, ABŞ-da, Hollandiyada, İsveçrədə, Fransada belə məsələlərlə məşğul olan baş ofislər müəyyən təşkilatların hazırladıqları nizamnamə, proqram və s. belə vəsaitləri lazım bildikləri ölkələrə keçirməyə müvəffəq olurlar. Belə sənədlər də əsasən tələbələr arasında yayılır.



Hazırda Azərbaycanda da belə iyrənc əməllərin artmasına rəvac verən müxtəlif təşkilatlar mövcuddur. Onlar belə nikahların arzusunda olanların toylarını təşkil edir, nikahlarının qeydinə qalırlar. "Meşə gözəli", "Dayə", "Fontan", "Nikah", "Dayılar məhəlləsi", "Student" və sair adlar altında Azərbaycanda fəaliyyət göstərən belə təşkilatlar, sözsüz ki, aşkar şəkildə işləmirlər.

Bəs görəsən, bəzi insanlar niyə məhz belə həyat yolu tuturlar? Gəlinən nəticələrdən biri də budur ki, xaricdən gətirilən taxıl və ət məhsulları, geyimlər, dərman preparatları insanlarda bu hisslərin yaranmasına və yoğunlaşmasına təkan verir.

**Hər nədirsə, hər nədən törənirsə, etiraf etmək lazımdır ki, bu, bir bəladır. Qızların qızlarla, "kişi"lərin "kişi"lərlə evlənmək istəməsi, bunun üçün mücadilə vermələri, hətta müxtəlif məhkəmələrə müraciət etmələri, onlara azadlıq verilmir, haqları əllərindən alınır deyə bir sıra şikayət cəhdlərində olmaları, daha sonradan bəzi həmvətənlərimizin (adamın onlara "həmvətən" deməyə dili də gəlmir) öz cinsiyyətlərini dəyişdirmək məqsədilə pullar töküb xarici ölkələrə getmələri (qadıq olmaq istəyən 1 "kişi"nin amputasiya xərci Cenevrədə 53 min ABŞ dollarıdır) nə qədər dözülməz və faciəli bir haldır.**

**Ölkədə dəhşətli bir fəlakətə çevrilən bu biabırçılıq, hər şeydən əvvəl, insan adına, ən nəhayət, azərbaycanlı adına qətiyyən sığmır. Bu məsələdə valideynlərin və ətraf mühitin də üzərinə çox böyük məsuliyyət düşür. Övladlarına nəzarəti zəif olan bir sıra valideynlər sonucda məhz bu utancverici və çarəsiz bir halla üz-üzə qalırlar.**



# Niyə əl çalmırsınız?

Evə girən kimi pult deyilən o qara şeyi və ya o qara əşyanı əlimə alıb bir-bir kanalları gəzirəm. Tərslikdən hara atıramsa reklamdır. Elə bil sözləşiblər. Rusiya və Türkiyə kanallarına da reklam əlindən heç baxılası deyil. Bir az başımı qatıb yenidən bayaqkı məşğuliyyətimə qayıdıram. İndi də, demək olar ki, bütün kanallarda bir və ya iki nəfər oturub danışır. Lap məəttəl qalasıdır. Birdən, səhv eləmirəmsə ATV idi, deyəsən, gördüm konsert gedir. Çox da sevinmədim. Bildim ki, bizim televiziyada çox nadir hallarda fərli-başlı, ürəkaçan bir müğənninin konsertinə rastlaya bilərsən. Hə, oxuyan İzzət idi, Bağırovu deyirəm. Yaxınlarda olmuş konsertini verirdilər, deyəsən. Bir-iki dəqiqə özümü zorladım ki, heç olmasa bir mahnısına axıracan quluq asım, həm də özünə baxım. Birtəhər iradə göstərib dözdüm. İzzət mahnısını başa vurdu. Sürəkli alqışlar gözlədi. Amma çox zəif alqışlar gəldi. İzzət zarafata salıb, "bizim tamaşaçılar əl çalmaqda zəifdirlər, bir əl çalın görüm" deyib ordakı camaatı ruhlandırmağa çalışdı. Amma hardan?..

Nə isə, əslinə qalanda məsələ İzzətin və ya bir başqasının konsert verməsi deyil. Məsələ bir sox müğənnilərin son zamanlar tamaşaçıları zəif əl çalmaqda suçlamasıdır. Bir şeyi birdəfəlik başa düşmək lazımdır: ifa gözəl olanda dinləyənlərə "əl çalın" demək heç lazım da gəlmir. Əsl sənətçini tamaşaçılar həmişə qiymətləndiriblər. Rəhmətlik Nəsibə Zeynalova heç vədə seyr edənlərə "əl çalın" və ya "gülün" deməyib. Əlağa Ağayev də elə. Səməndər rəhmətlik də elə. Bəşir Səfəroğlu da elə. Səyavuş Aslan da elə. Alim də elə. Yenə sayımmı? Başa düşən üçün bəsdir. Siz də, ay müğənnilər, ay səhnə adamları, elə ifa nümayiş etdirin, elə oyun göstərin ki, sizi dinləyənlər, baxanlar alqışlarını əsirgəməsinlər. Tamaşa edənlər səhnədəki insanın ifasından məhz həzz alanda qeyri-ixtiyari əl çalırlar, ifadan sonra əl çalmaq gərəkli olduğu üçün yox. İfadan sonra xalaxətrin qalmasın deyə çalınan əllər zəif olur həmişə. Neynəsən də, gur olmayacaq. Yaxşısı budur, heç olmasa bunu başa düşüb "əl çalmaqda zəifsiniz" deməyin. Unutmayın ki. Azərbaycan tamaşaçıları dünyada ən səviyyəli tamaşaçıdır. O, kimə və nə üçün əl çalmağı çox gözəl bilir. Alqışlar zəifdirsə, bunun günahını tamaşaçıda axtarmayın, əziz səhnə adamları!



# Kliplərimiz nədən əcnəbi telekanallara çıxa bilmir?

Son illər Azərbaycanda yaranan kliplərin sayı-hesabı yoxdur. Müğənnilərimiz sanki yarışırlarmış kimi gündə bir kliplə ekranlara çıxırlar. Bəs bu kliplərin hamısı baxılandırmı? Elə bu üzdən də kliplərimizi səviyyəli, orta səviyyəli, çox zəif, qıcıqlandırıcı kliplər deyə bir neçə kateqoriyaya bölə bilərik. Burdan da belə bir nəticə çıxır ki, üstünlük təşkil edən səviyyəsiz kliplərlə xarici şou-biznesə gedən yol həddən ziyadə uzun olacaq.

Məlumdur ki, kliplərimizi əcnəbi telekanallarda yaya bilmirik. Bəs bunun səbəbi nədir? Bəlkə bu işlərə çoxlu miqdarda maliyyə lazımdır? Elə isə klip çəkdirən pullu müğənnilərimiz az deyil. Bəlkə kliplərimizin çoxu restoran ab-havasında çəkilir? Amma bu ab-havanın duyulmadığı məkanlarda çəkilən kliplərimiz də var. Bəlkə əvvəlcə mahnılarımızı, müğənnilərimizi təbliğ etmək lazımdır, sonra kliplərimizi? Yəqin əsaslı səbəb də elə budur. İlk əvvəl dünyada mahnılarımızı tanıtmaq gərəkir ki, sonradan tanınıb, ən əsası da sevilən müğənnilərin ifasında çəkilən kliplərə tələbat duyulsun. Həm də, yəqin, elə etmək lazımdır ki, mahnılarımızı əcnəbi dillərdə də oxusunlar və kliplər çəkdirsinlər. Bu da var ki, bizim beynəlxalq yayım bazarının tələblərindən xəbərimiz yoxdur. Məhz bu işdə professional və bacarıqlı işçilərin çalışması əsas şərtdir. Bütün bu sadaladıqlarımız öz yerini tutarsa, bəlkə o zaman səviyyəli kliplərimiz xarici ölkə ekranlarında da yayımlanar və yəqin ki, sevilər. Amma onunla da razılaşaq ki, hazırda izlədiyimiz kliplərin heç birisi dünya şou-biznes aləminə çıxarılası deyil.



Hazırladı: *Xatirə Əsilbəyli*

# MƏTƏ XAQAN OĞUZ XAQANDIRMI?

Böyük Çin imperatoru Sin-Şi-Xuandi ölən il (miladdan öncə 209) Böyük Hun xaqanı Mətə xaqan hakimiyyətə gəldi. O, çox tez bir zamanda Çinin Şimalındakı bütün xalqları ram edib, Sakit okeandan Xəzər dənizinədək, Şimalda Tayqa meşələrinədək çox böyük bir ərazini əhatə edən Böyük Hun İmperiyasını yaratdı. Çin qaynaqları artıq m.ö. 201-ci ildə hunların Böyük Çin Səddini aşıb Çinə axın etdiklərindən xəbər verir. Hunların bu axınlarından hiddətlənmiş Çin imperatoru Kao 320 min nəfərlik nəhəng bir ordu yaradıb hunların üzərinə yeriyir. O da aşkarlanıb ki, bu rəqəm Hun əhalisinin uşaqlı-qadınlı-qocalı ümumi sayından artıq olub. Bəli, Mətənin ordusu sayca bu nəhəng Çin ordusundan qat-qat az idi. Lakin gündəlik yaşantısında hiylə, kələk, yalan nə olduğunu bilməyən türklər döyüşdə son dərəcə hiyləgər və aldadıcı idilər. Mətə xaqan bu nəhəng Çin ordusunun qarşısına 10 min nəfərlik bir diviziya göndərib, qalan qüvvələrini özünün müəyyənləşdirdiyi ərazidə pusquda qoydu. 10 min nəfərlik bu diviziya tez-tez Çin ordusu ilə döyüşə girib sonra geri çəkilərək, onu Mətənin nəzərdə tutduğu pusqu yerinə gətirməli idi. Hun döyüşçüləri döyüşə girib özlərini məğlub olub qaçan kimi göstərir, nəhəng imperator ordusunu öz arxasıyca çəkib aparırdılar.

Çin ordusu bir də səhər yuxudan ayılıb görmüşdü ki, Mətə xaqanın mühasirəsinə düşüblər. Mühasirə tam 7 gün davam etmiş və bu müddətdə imperator ordusu kənardan heç bir ərzaq ehtiyatı ala bilməyərək son dərəcə ağır vəziyyətə düşmüşdü.





Çin imperatoru bu mühasirədən indiyə qədər açılmamış və öyrənilməsi heç vaxt da mümkün olmayacaq hansısa çox şərəfsiz bir ödənişlə çıxa bilmişdi. Çin qaynağı bu barədə belə yazır: "İmperator sərkərdə Çenq-Rinqin gizli planından istifadə etdi. İmperator xilas olduqdan sonra bu plan gizli saxlanılır. Dünyada heç kəs bir daha bu plan haqqında məlumat əldə edə bilmədi."

Bilinən təkcə odur ki, sərkərdə Çenq-Rinq çox qiymətli hədiyyələrlə Mete xaqanın xatununun hüzuruna getmiş, xatun da hədiyyələri qəbul edib mühasirəni götürmək üçün Mete xaqanı dilə tutmuşdu. Lakin tarixçilər hesab edirlər ki, bu hədiyyələr Mete xaqanın mühasirəni açmasına səbəb ola bilməzdi. Çünki rüşvət olaraq göndərilən bu hədiyyələr, əslində, mühasirə içində, yəni hunların əlində idi.

Sövdələşmə hətta Hun döyüşçülərindən də gizli saxlanılmışdı. Dumanlı bir havada Mete yalnız iki ordu birləşməsinin arasını azacıq açmış, dumana görə hunları görməyən çinlilər ox yağmuru ilə guya mühasirədən çıxmışdılar. Elə görünmüşdü ki, guya Çin əsgərləri döyüşə-döyüşə mühasirədən çıxırlar. Mete xaqanın mühasirəni açıb imperatoru buraxması, görünür, Çin üçün o qədər alçaldıcı və həqarətli şərtlərlə olmuşdu ki, bu sülalənin davamçıları zamanında da bu sirri açmağı yasaq etmişdilər.

Miladdan sonra 29-cu ildə ölmüş Huan-Tan adlı Çin tarixçisi bu barədə belə yazır: "Bəziləri deyirlər ki, Çenq-Rinq imperator Kaonu Metenin mühasirəsindən qurtarmışdır. Lakin bu hələ də sirr olaraq qalır. Bu sirrin nədən ibarət olduğunu yer üzündə heç kəs öyrənə bilməmişdi. Mən belə düşünürəm ki, bu iş o qədər bayağı, qəribə və kobud idi ki, heç kəsə bildirilməmişdi."

**Mete xaqan obrazı türklərin tarixi yaddaşında silinməz izlər buraxıb. Ziya Göyalp Mete xaqanın yürüşlərini "Oğuz Xaqan" dastanı ilə tutuşduraraq, Metenin Oğuz Xaqan ola biləcəyini əsaslandırıb. Bu iddianı ilk olaraq irəli sürən isə avropalı tarixçi De Quiqnes olub. Habelə B.Laufer kimi məşhur bir tarixçi də bunun mümkünlüyünü qəbul edir.**

***(İstinad: Şahlar Həsənoğlu)***



# BİRUNİ



**Adı Ay xəritəsində yer alan bu məşhur türk astronomu Kopernikdən 500 il öncə dünyanın Günəş ətrafında fırlandığını isbat etmiş və Yer kürəsinin diametrini dünyada ilk dəfə dəqiq ölçmüşdür.**

973-cü ildə Türküstanın Xivə şəhərində doğulan Biruni hələ çox gənc ikən Xarəzmşahlar sarayı ilə əlaqə yaratdı. Parlaq bir zəkaya malik olan və macərasevən bu gənci Əmir Əbu Nasir Mənsur öz himayəsinə aldı. Onun İbn Sina, Samət Əl-Həkim kimi dövrünün ən böyük alimlərindən dərs almasına və onlarla dostluq etməsinə səbəb oldu.

Qaznəli Mahmudun Hindistanı tutmasından sonra ora gedən Biruni sanskritcə öyrəndi. Hind elmini diqqətlə araşdırdı, həndəsə, triqonometriya, astronomiya və coğrafiya sahəsində böyük uğurlar qazandı. Tibb sahəsində də çalışdı.



Biruni özünün tapdığı bir üsulla və özünün kəşf etdiyi alətlərlə metalların xüsusi çəkilərini ölçdü. Ancaq onun ən böyük uğurları astronomiya sahəsində oldu. Biruninin göy üzünə tuşlanmış teleskopunun diametri 7,5 metr idi.




Biruni bu gün Pakistan sərhədi içində qalan Nəndənə qalasında apardığı bir ölçmə sonunda yer kürəsinin diametrinin 6338,8 km olduğunu tapdı. İndi ən həssas alətlərlə aparılan ölçmələrə görə bu rəqəm 6353,4 km-dir. O dövr üçün Biruninin ölçməsi dahiyanə bir dəqiqlikdir.

995-ci ildə Biruni yer kürəsinin ekleptik əyilimini də ölçmüş və ondan sonrakı daha dəqiq ölçmə elmə ancaq 1950-ci ildən bəri məlum olmuşdur. Bu günümüzdən on yüzil öncə o zamanın alətləri ilə Kürəmizin əyilimini bir saniyəyə qədər bir fərqlə ($26^0 27$ san. əvəzinə $26^0 26$ san.) tapması insanı heyrətdə qoyur.

Dünyanın ilk astronomiya ensiklopediyasını Biruni yaratmışdır. Biruni Yer kürəsinin öz oxu və Günəş ətrafında fırlanmasını Kopernikdən 500 il əvvəl elmi yolla sübut etmişdir. Kopernikin əsərinin ortaya çıxmasından çox-çox əvvəl meydana atılan bu ideya xristian düşüncəsilə İncilə zidd olduğundan xristian Qərb dünyası tərəfindən qəbul edilmədi. Amma bir çox yüzillər sonra Qərbdə onun fikirlərindən, türk-islam dünyası alimlərinin kəşflərindən və düzəltdikləri alətlərdən istifadə olundu.

**20-ci yüzilin ikinci yarısında elm dünyası bu böyük türk astronomunun xatirəsinə hörmət əlaməti olaraq Ayda görünən kraterlərdən birinə Biruninin adını vermişdir (Ay xəritəsində daha iki türk mənşəli astronomun - Uluqbəyin və Nəsirəddin Tusinin adı var).**

**İstinad: "Xəzər" jurnalı**











**İşlədi:** *Təbib Əliyev*
ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33

# QATİL BACIOĞLU

Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə 1981-ci il təvəllüdlü Andrey Qasımovun məhkəməsi yekunlaşıb. Andrey Qasımov ona himayədarlıq etmiş xalasını qətlə yetirməkdə təqsirli bilinirdi. İstintaq materiallarından aydın olur ki, hələ Andrey körpə olarkən valideynləri boşanıblar. Atası Rəşid qızıyla birlikdə Buzovna qəsəbəsində yaşamağa başlayıb. Ancaq qısa müddətdən sonra anası körpə Andreyi bacısı Olqanın üstünə ataraq Rusiya Federasiyasına yollanıb və bir daha Azərbaycana qayıtmayıb. Xalasının himayəsində yaşadığı müddətdə Andrey bircə dəfə də olsun ailə üzvlərinin nə üzünü görüb, nə də səsini eşidib. Xala ümidinə qalan azyaşlı ev işləri ilə məşğul olub və tez-tez döyülüb.



Bir neçə il əvvəl Olqanın həyat yoldaşı ağır cinayət törətdiyinə görə dəmir barmaqlıqlar arasına düşür. Odur ki, yaşı 15-i ötəndən sonra Andrey xalasını və onun iki oğlunu dolandırmaq üçün orta məktəbi atır, qul bazarında dayanır, qazandığı gündəlik pulu axşamlar qəpiyinə qədər xalasına verir. Son vaxtlar sərxoşluğa meyl göstərən xalası da Andreyin gətirdiyi pulları spirtli içkiyə xərcləyir. Bu minvalla aradan daha bir neçə il ötür. Son vaxtlar Andrey hiss edir ki, xalasının rəfiqələri gündən-günə artır. Hər dəfə işdən evə qayıdarkənsə şahidi olur ki, xalası evə yad kişilər gətirir, eyş-işrət məclisləri qurur. Xalasını bu yoldan çəkindirmək üçün dəfələrlə söhbət etsə də, qadın bacıoğlunun sözlərini qulaqardına vurur.

2004-cü il avqust ayının 9-da Andrey arabaçı kimi işlədiyi bazardan çıxıb evə gələrkən xalasının yenə rəfiqəsilə araq içdiyini görür. Yan otağa keçərkən sərxoş xalası arxasıyca küçə söyüşləri yağdırır və ondan qazandığı gündəliyi stolun üstündə qoymasını tələb edir. Andreysə bildirir ki, bu gün qazancı olmayıb. Olqa həyətə çıxan qapını açaraq şəhadət barmağının işarəsi ilə "pul gətirməmisənsə, mənim evimdə sənə yer yoxdur, rədd ol mənim evimdən" deyə qışqırır. Qadın artıq onların olduğu otağa keçərək stulda əyləşmiş Andreyə yaxınlaşaraq onu itələyib stuldan aşırır. Əsəbləri tarıma çəkilmiş Andrey cəld ayağa qalxaraq xalasını qorxutmaq üçün televizorun üstündəki vintaçana əl atır. Ancaq qadının əl çəkmədiyini gördükdə həmin alətlə qarın boşluğuna zərbələr endirir. Sonra isə qana bulaşmış qadına məhəl qoymayaraq mənzili tərk edir. Yaralı qadınsa qonşuların köməkliyi ilə xəstəxanaya götürülür.

Xalasının ağır yaralandığını bilən Andrey tutduğu əməldən peşmançılıq hissi keçirir. O, bütün günü xəstəxananın həyətində vurnuxaraq yaralının vəziyyəti ilə maraqlanır, hətta tanışlarından borc pul götürərək xalası üçün iynə-dərman da alır. Lakin üç gündən sonra qadın xəstəxanada dünyasını dəyişir.

Andrey Qasımov məhkəmə ifadəsində göstərib ki: "Məni uşaqlıqdan xalam saxlayıb. Gedəcək başqa yerim olmadığından onun evində qalırdım. Ayda 400-500 min manat pul qazanırdım, hamısını da xalama verirdim. Xalamın böyük oğlunun 28 yaşı olmasına baxmayaraq heç yerdə işləmirdi. Xalam sərxoşluq eləyir, evə yad kişilər gətirirdi. Kişilər evə yığışanda məni də öz oğlanlarına qatıb evdən qovurdu".

**Xalasını qətlə yetirən Andrey Qasımov məhkəmənin hökmüylə 11 il müddətinə azadlıqdan məhrum edilib.**

# DAYISINI QƏTLƏ YETİRDİ

**Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəmədə Əli Bayramlı şəhər sakini 27 yaşlı Sadiq Gülmalıyevin məhkəmə prosesi yekunlaşıb. O, doğma dayısı Məmməd Kərimovu qətlə yetirməkdə ittiham edilib. İstintaq araşdırmaları zamanı məlum olub ki, qətl hadisəsi ailə münaqişəsi zəminində baş verib.**

Məhkəmədə ifadə verən müttəhim özünü təqsirli bilərək göstərib ki, təxminən yeddi il əvvəl dayısı qızı Badam Kərimovayla nikahlarını rəsmiləşdirmədən ailə qurub və iki qız övladları dünyaya gəlib. Ötən müddət ərzində aralarında mütəmadi narazılıqlar olub, Badamın valideynləri onların ailə məsələlərinə müdaxilə etməklə boşanmalarına çalışıblar. Vəziyyəti belə görən Sadiq arvadına ata evinə getməyi qadağan edib. Ancaq Badam bu qadağaya məhəl qoymayaraq, ərindən gizli şəkildə atasının evinə getməkdə davam edib. Bu da ərlə arvad arasında münasibətlərin daha da kəskinləşməsinə gətirib çıxarıb.

Ötən il aprel ayının 3-də Sadiq səhər işə getmək üçün qapıdan çıxmağa hazırlaşarkən Badam onun arxasınca "bəlkə də qayıdıb məni evdə görmədin" deyib. Sadiqsə arvadının sözlərini ciddi qəbul etməyib. Axşam saat təxminən 17-00 radələrində evə qayıdarkən Badamı evdə tapmayıb. Böyük qızını yanına çağıraraq anasının harada olduğunu soruşub. Uşaqdan öyrənib ki, Badam kiçik qızını da götürərək atasgilə gedib. Sadiq arvadının qayıtmasını iki gün gözləyib. Onun gəlmədiyini gördükdə isə arvadının arxasınca özü qayınatasıgilə yollanmalı olub. Aprel ayının 5-də qayınatasıgilə gələn Sadiqin üzünə qapını Badam açıb. O, Badamdan yığışıb evə qayıtmasını tələb edib. Qadınsa söyləyib ki, bir daha onun evinə qayıtmayacaq. Ərlə arvadın səs-küyünə həmin vaxt evdə olan qayınatası Məmməd Kərimov, baldızı Münəvvər də çölə gəlib. Qayınatası Sadiqin boğazından yapışaraq boğmağa başlayıb, köynəyinin yaxalığını dartıb cırıb. Arvadı və baldızları onları ayıra bilməyiblər. Bu zaman Sadiq cibindən bıçaq çıxararaq qayınatasının başına və ənsə nahiyəsinə bir neçə zərbə endirərək hadisə yerindən evlərinə qayıdıb. Bir neçə dəqiqədən sonra qaynı Nəbi onlara gələrək atasını nəyə görə bıçaqla vurmasını soruşub. Sadiq Nəbiyə də taxta parçasıyla ağır bədən xəsarətləri yetirib. Bu vaxt Məmməd Kərimovu vurması ilə əlaqədar onu



həbs etmək üçün həyətə gələn polis əməkdaşları Sadiqi həbs edərək polis şöbəsinə aparıblar. Orada eşidib ki, qayınatası (eyni zamanda dayısı) Məmməd Kərimov aldığı xəsarətlərdən dünyasını dəyişib.

Məhkəmədə zərərçəkən qismində dindirilmiş Rüxsarə Kərimova söyləyib ki, təxminən altı-yeddi il əvvəl mərhum ərinin bacısı oğlu Sadiq Gülmalıyev qızı Badamla qeyri-rəsmi şəkildə ailə qurublar. Ancaq elə ilk vaxtlardan münasibətləri pis olub. Sadiq mütəmadi olaraq Badamı döydüyünə görə hətta bir neçə dəfə bu barədə polisə müraciət etməli olublar. Son vaxtlar isə Sadiq Badamın ata evinə ayaq basmasını belə qadağan edib. 2004-cü ilin aprel ayının əvvəllərində Badam kiçik qızıyla onlara gəlib, bir gecə qaldıqdan sonra əri Məmməd qızı Badamı yanına çağıraraq uşağı da götürüb evinə qayıtmasını tapşırıb. Badamsa bildirib ki, bir qədər əvvəl Sadiq onu atası evinə gedərsə də öldürəcəyi ilə hədələyib. Odur ki, qorxusundan geri qayıda bilməz. Aprel ayının 5-də isə Sadiq onlara gəlib və qapını açan Badamla mübahisə etməyə başlayıb. Həmin vaxt bostanda işləyən Məmməd səsə qapıya tərəf gedib. Az sonra Badam anasını səsləyərək "gəl, Sadiq atamı öldürdü" - deyib. Pəncərədən boylandıqda ərinin darvazanın qarşısında yerə yıxıldığını, Sadiqinsə ona bıçaqla zərbələr endirdiyini və darvazadan çıxaraq qaçdığını görüb. Səsə yığışan qonşular yaralını xəstəxanaya götürüblər, ancaq həkimlər onun artıq keçindiyini bildiriblər.

**Sözügedən cinayət işi üzrə məhkəmə istintaqı artıq yekunlaşıb və Sadiq Gülmalıyev məhkəmənin hökmüylə 14 il müddətinə azadlıqdan məhrum edilib.**

# QULLUQÇU QADININ ÖLÜMÜ BAŞQA BİR QƏTLƏ SƏBƏB OLDU

Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəmədə hakim Tofiq Paşayevin sədrliyi ilə keçirilən məhkəmə istintaqı başa çatıb. Məhkəmədə məlum olub ki, ayrı-ayrı evlərdə qulluqçuluq etməklə ərini və uşaqlarını dolandıran Heyran Təvəkkülova həmin evlərdən birində pəncərə şüşələrini silərkən hündürlükdən yerə yıxılıb. Ev sahibləri qulluqçu qadını xəstəxanaya götürsələr də, o, kəskin qanitirmədən dünyasını dəyişib. Heyran Təvəkkülova faciəli şəkildə dünyasını dəyişəndən sonra onun həyat yoldaşı Sabir Təvəkkülov hadisə baş verən evin sahiblərini şantaj etməyə başlayıb. Sabir Təvəkkülov tez-tez Hacıbala Mürsəliyevin və onun oğlu Talehin yanına gələrək onlardan 1000 ABŞ dolları tələb edib. Mürsəliyevlər ailəsi onun bu tələbini əsassız hesab edərək, hər dəfə ona qadının öz ehtiyatsızlığı üzündən yıxılaraq öldüyünü başa salmağa çalışıblar. Növbəti dəfə Sabir Təvəkkülov Mürsəliyevlərdən zorla pul qoparmağı planlaşdırıb. Bu məqsədlə də evdən mətbəx bıçağı götürərək, təkrar onların yaşadıqları ünvana yollanıb. Evin yaxınlığında pusqu quraraq Taleh Mürsəliyevin yolunu gözləyib. Bir qədər sonra yaşadığı mənzilə getmək üçün yolu keçmək istəyən Talehi görən Sabir cəld hərəkətlə ona yaxınlaşaraq 1000 ABŞ dollarını yaxın günlərdə ona çatdırmağı əmr edib.



Taleh Sabirə bildirib ki, bir daha ona pul verməyəcək. Qəzəblənən Sabir bıçağı cibindən çıxararaq Talehin üstünə cumub və onun bədəninə 9 bıçaq zərbəsi endirməklə onu qətlə yetirib.

Məhkəmədə dindirilən Sabir Təvəkkülov isə qətlin səbəbini başqa cür izah edib. İfadəsində göstərib ki, Taleh Mürsəliyev əvvəllər də onun arvadı Heyrana sataşıb, qadına qarşı nalayiq hərəkətlər edib. Heyran Talehgilin evində işləyərkən faciəli şəkildə öləndən bir qədər sonra - iyun ayının 15-də o, təsadüfən Talehlə rastlaşıb. Taleh bildirib ki, Heyran sağlığında xadimə işlədiyi məktəbdə lotoreya oynayırmış. Ancaq artıq həyatda olmadığına görə ona çatası pulu Taleh alacaq. Aralarında mübahisə də bu səbəbdən baş verib. Sabir yumruq zərbəsi ilə Talehi yerə yıxıb. Dərhal ayağa qalxan Taleh də Heyranın qəbrinə nalayiq söyüşlər işlətməyə başlayıb. Buna dözməyən Sabir cibində gəzdirdiyi bıçağı çıxararaq Talehə zərbələr endirib. Küçənin mərkəzində Talehi qətlə yetirəndən sonra evə qayıdıb. Özünü öldürmək məqsədilə əvvəlcə sirkə turşusu içib, ancaq təsir etmədiyini görəndə bıçaqla öz qarın boşluğuna iki dəfə zərbə endirib. Vaxtında xəstəxanaya götürülərək tibbi yardım göstərilməsi nəticəsində sağ qalıb. Sabir Təvəkkülov məhkəmənin sonunda Taleh Mürsəliyevi qətlə yetirməkdə peşmançılıq çəkmədiyini də söyləyib.

**Bu yaxınlarda məhkəmə istintaqı yekunlaşıb və məhkəmənin hökmüylə Sabir Təvəkkülov 13 il müddətinə azadlıqdan məhrum edilib.**

## BAŞSAĞLIĞI

**Nizami Elyanarın dayısı Əli Məhəmməd oğlu İsmayılovun vaxtsız vəfatı ilə əlaqədar oğlanları Oruc, Məhəmməd, Şiraz, Ramiz qardaşlarına dərin hüznlə başsağlığı verir.**

Hazırladı: *İsrail*

# «XƏMSƏ»DƏ AŞIQ ƏLƏSGƏR



*Aşıq olub diyar-diyar gəzənin,*
*Əzəl başda pürkamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra.*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*



**Mart ayının 25-də "Xəmsə" İstirahət Mərkəzində Milli Elmlər Akademiyasının Folklor İnstitutu, "Xəmsə" jurnal və qəzetinin təşəbbüsü ilə "Aşıq Ələsgər saz-söz bayramı" keçirildi. Bayram əvvəlcə İstirahət Mərkəzinin həyətində aşıqlarımızın musiqiləri və milli paltar geymiş oğlanların, qızların rəqslərilə başladı. Dəvət olunmuş 1000-ədək ziyalı, elm və sənət adamının xüsusi zallarda Aşıq Ələsgərin yaradıcılığı haqqında söhbətləri, musiqiçilərimizin və respublikamızın müxtəlif bölgələrindən gəlmiş 70-dən çox aşığın ifasında dədə Ələsgərin sözlərindən ibarət mahnılar dinlənildi. "Saz-söz bayramı" axşam saat 21:00-adək davam etdi.**













# SAZ - SÖZ BAYRAMI

*Könül, sən ki, düşdün eşqin bəhrinə,*
*Narın çalxan, narın silkin, narın düz.*
*Dost səni bağına mehman eyləsə,*
*Almasın dər, gülün iylə, narın üz.*
***
*Bahar fəsli, yaz ayları gələndə,*
*Süsənli, sünbüllü, lalalı dağlar,*
*Yoxsulu, ərbabı, şahı, gədanı,*
*Tutmaz bir-birindən aralı dağlar.*
***
*Varlıynan dost olub yoxsula gülmə,*
*Çox da havalanıb cöşma dünyada.*
*El səni istəyib qabağa çəksə,*
*Ağır ol, alçağa düşmə dünyada!*















**Gözəl, sənə məlum olsun,**
**Alışmışam, yanıram mən,**
**Ala gözlərin görəndə,**
**Canımdan usanıram mən.**
***
**Mənim adım Ələsgərdir,**
**Dərdim dillərdə əzbərdir.**
**Xalların dürrü-gövhərdir,**
**Sərrafıyam, tanıram mən.**
***
**Qədəm qoyub asta-asta,**
**Sən bu diyara xoş gəldin!**
**Süzdürüb ala gözləri,**
**Qaşları qara, xoş gəldin!**

TELEVİZİYA PROQRAMI

## Vida nəğməsi

Sən kimisə aldatmağa həvəsliydin, mən kiməsə inanmağa qərarlı. Beləcə qarşılaşdıq payızın bir günündə. Həmin andan doğmalaşdın sən mənə. Unutdum səninlə acı dünyanı. Unutdum udduğumu, uduzduğumu. Unutdum sevənlərin faciəsini, olumu, ölümü, "ayrılıq" kəlməsini. Axı mən kiməsə inanmalıydım…

Divanəyə döndüm səni görməyəndə. Heçliyə gömüldüm sən olmayanda. Dənizə atılmış çiçəyə bənzədim qarşında pul tək xırdalananda. İnandım sənə, qara gözlüm…



Axı mən kiməsə inanmalıydım! Axı sən kimisə aldatmalıydın?!

İndi hər şeyi - cavabsız istəyimi, azdığım yolları, itdiyim döngələri, iztirablı, nigaran gecələrimi unutmaq istəyirəm. İndi hər şeyi - sındırdığın könlümü, itirdiyim gümanımı, son andımı, son ahımı, inadımı, imanımı, gərəksiz varlığımı unutmaq istəyirəm. Yalnız bircə şey diləyirəm:

Ay ölülər, ay ölənlər,
Baxıb bizə gülənlər.
Boş məzar yeri bilənlər,
Ölməyə bir məzar verin!..

**Xatirə**

## TƏBRİK



*Əzizimiz Emin*. Bir yaz günü - **mart ayının 29-da** dünyaya gəldin. Gəlişinlə ömrümüzə işıq saçdın, qəlbimizə fərəh verdin. Gözümüzün ilk ovu, sevimli balamız, bu gün sənin **21 yaşın** tamam olur. Bu münasibətlə səni təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq. Qoy yaz yağışı ömrünə çilənsin, çilənsin, heç tükənməsin. Səadət yol yoldaşın, bəxtiyarlıq həmdəmin olsun. Dünyanın bütün gözəllikləri daim taleyini bəzəsin.

**Təbrik edirlər:** atan **Adil** müəllim, anan **Şükufə** xanım, qardaşın **Kənan**.

Təbrikə bütün yaxınların və sevənlərin də qoşulur.

## Fikir

Hərdən bir an oturub,
Fikrimlə keçdiyim yolları,
Bir də keçib,
"Dostları", "düşmənləri",
Bir də seçib,
Yerli-yersiz
Buraxdığım,
Səhvə baxıram.
Siqaret əvəzinə,
Ürəyimin yağını çəkib,
Şərab əvəzinə ürəyimin qanını içib,
Keyfə baxıram.

***Eldar Bədbin Beyləqanlı***

## İthaf

Sən öz məhəbbətini, sevgini verdin ona,
Bir idisə, verdiyin on oldu, on qat artdı.
Bircə inamsızlığın dərd gətirdi dostuna,
Sənin bu dönüklüyün səni səndən qopardı.

Min illik xanimanlar uçub dağılsa belə,
Sənin tikdiyin saray saxlayıb məğrurluğun.
Bu möhtəşəm həqiqət, gözəl töhfədir elə,
Ruhun duyduqca bunu çıxacaq yorğunluğun.

O vaxt atdığın güllə indi hədəfə dəyir,
Vurduğun möhrün qalıb onun dodaqlarında.
Zərif söz çələngini oxuyan amin deyir,
Gəncliyin təravəti qalıb yanaqlarında.

Sənin səxavətindən qazanmış o, qismətin,
Onun səxavətiylə hasil olar niyyətin.

***Ədalət Həşimov***

## Sevdiyim insan

Başını qaldırıb göylərə hər an,
Qoy kömək etsin ona Yaradan.
Başı namaz üstə, Quran əlində,
Məhəbbət cümləsi yalnız qəlbində.

İçdiyi çay olsun, bir də ki, şərbət,
Onda güc olsun, bir də ki, taqət.
Özündən deməsin, yenə getməsin,
Özündən böyüyə hörmət eyləsin.

Başında biliyi, əlində qələm,
Gözündə gözlüyü, dilində kəlam.
Yağışın altında məni gözləsin.
Heç nə istəmirəm, qoy tərifləsin.

***Gülşən Abdullayeva***

## Cavanlıq

Cavanlıq qönçədir, gül açır, solur,
Cavanlıq pöhrədir, bir ağac olur.
Cavanlıq şölədir, tez yanır, sönür.
Cavanlıq çöhrədir, ağlayır, gülür,
Cavanlıq töhfədir, qısa bir ömür.
Cavanlıq körpədir, qocalır, ölür.
Cavanlıq belədir, xəyala dönür.

***Elçin Ağayev***

## Bir sevda ağlayır

Bilmirəm nədəndir, bilmirəm nədir.
Səni düşünəndə artır kədərim,
Öz fikirlərim özümə olubdur qənim,
Bir sevda ağlayır içimdə mənim.

Son dəfə səninlə ayrılan gündən
Heç üzüm gülməyir tükənmir qəmim
Elə bil dəryada batıbdır gəmim
Bir sevda ağlayır içimdə mənim.

***Yasin Bağırov***

## Sevgilim

Gözlərin könlümü edibdir xəstə,
Mən olmuşam sənə heyran, sevgilim.
Ay, yanağı lalə, dodağı püstə.
Şirindilli, dəcəl, şeytan sevgilim.

Sən mənimçün əzizlərdən əzizsən,
Qəlbin pakdır, saf sudan da təmizsən.
İlahidən sən mən bir sürprizsən,
Olarsanmı mənə canan, sevgilim?!

Təbiət ətrini vermiş gülünə,
Şirinliyi səpib sənin dilinə.
Desələr canın ver sevgilinə,
Mən olaram sənə qurban, sevgilim!

Səni özümdən də artıq istəsəm,
Sənə həyatımın mənası desəm,
Səni öz anama gəlin gətirsəm,
Etməzsən ki məni peşman, sevgilim?!

Sənsiz həyatımın mənası yoxdur,
Ürəyimdə səndən başqası yoxdur.
Fikrət xəstələnib şəfası yoxdur,
Təkcə sənsən ona dərman, sevgilim!

***Fikrət***

## Pritça

O, başını qaldırıb qorxunc gözlələrə ətrafa nəzər saldı. Hamı əlində daş tutub baxır və nə isə gözləyirdi. Bir an özünün özünə yazığı gəldi; o daşlanmaq istəmirdi…

Yaşama başlamamışdan doğulacağını bilmirdi. Eləcə qeyri-bəşəri olacağını da. Öz istəyilə yaranmamışdı. Onu yaratmışdılar. İnkişafa doğru can atan cəmiyyət onu bu hala salmışdı və indi də eybəcərləşdirdiyi məhsulunu məhv etməyə hazır bir vəziyyətdə idi. Çünki o, bir güzgü idi. Özünü bu güzgüdə görüb dəhşətlənənlər qəti qərar vermişdilər: o ölməli, yox olmalı, heçə dönməli idi.

**Xatirə**

## Darıxıram, çox darıxıram…



Darıxıram… Sənin üçün darıxıram, sevgilim. Gücüm çatmır səni unutmağa. Darıxıram əlini tutmaq, səsini eşitmək və boynuna sarılıb ağlamaq üçün. Səbəbsiz sevinclər, sevgi dolu baxışlar, isti nəfəsin üçün darıxıram. Gücüm çatmır səni unutmağa. Səni unudacağımı, xəyallarıma girməyəcəyini düşünürdüm. Amma gecələr röyamda, səhərlər isə baxdığım hər yerdə yenə də səni görürəm. Bu özləm heç bitməyəcək. Ruhumda sənin üçün açan rəngli güllər heç solmayacaq. Sən olmasan da, sənsiz yaşadacağam bu sevgimi. Sənsiz səninlə olmağı bacaracağam. Son nəfəsimə qədər səni sevəcək və sənsiz keçən günlərimə vida edərək səninlə əbədiyyətə qovuşacağam.

***Rəşad***

# Sevgi və nifrət

*Salam, "Xəmsə" redaksiyası. Sizin əvvəlki buraxılışlarınızı almışam, qəzetdə dərc olunan yazılar mənim diqqətimi cəlb edib. Oxucularla həyat hekayəmi bölüşmək istəyirəm. Əvvəlcədən kollektivinizə dərin minnətdarlığımı bildirirəm.*

*Mənim adım Arzudur. Təəssüflər olsun ki, adımın Arzu olmağına baxmayaraq, həyatda (hələ ki) heç bir arzuma çatmamışam.*

*Allahın bizə bəxş etdiyi bu həyatda gec-tez hər kəsin qəlbində ilk məhəbbət yuva salır. Bəziləri üçün bu sevgi xoşbəxtliklə, bəziləri üçünsə bədbəxtliklə (ayrılıqla) nəticələnir.*

*Biz Rüfətlə bir-birimizi çox sevirdik. Ya da mənə elə gəlirmiş. Rüfət bacımın sevgilisi Anarın dostu idi. Elə biz də onların vasitəsilə tanış olmuşduq. Tanış olduğumuz gündən bir-birimizi çox bəyənmişdik. O gündən sonra demək olar ki, hər gün saatlarla telefonla danışır, tez-tez görüşürdük. Günlər, aylar bir-birini əvəz etdikcə bir-birimizə daha çox bağlanırdıq. Artıq mən həyatımı onsuz təsəvvür belə etmirdim.*

*Bir gün yenə görüşdük. Bu görüşümüzdə o mənə üzük hədiyyə etdi. Və söylədi ki, bu üzük aramızda olan böyük sevgimizin kiçik bir nişanəsi olsun. O gün mən çox sevincli idim, elə hesab edirdim ki, həyatda məndən xoşbəxti yoxdur. Amma bu xoşbəxtliyimin ömrü çox qısa oldu. Artıq bir neçə gün idi ki, Rüfət nə zəng edir, nə də zənglərimə cavab verirdi. Günlər keçdikcə narahatlığım daha da dözülməz olurdu. Bir ay keçmişdi, amma Rüfətdən yenə də heç xəbər yox idi. Anardan soruşduğum zaman o da Rüfətdən heç bir xəbər olmadığını deyirdi.*

*Nəhayət, bir gün Rüfətin yoxa çıxmağının səbəbini öyrəndim. O çox sevdiyim oğlan öz qohumlarından bir qızla evlənməyə hazırlaşırmış. Hətta iki-üç gün ərzində toyu da olacaqmış. Bu sözləri Anardan eşitdiyim zaman qulaqlarıma inanmadım. Sanki ətrafımda olan hər şey üstümə gəlib məni sıxırdı. Göz yaşlarımı nə bacım, nə də Anar görməsin deyə heç bir söz demədən uzaqlaşdım. Bütün çəkdiyim əzablara baxmayaraq onun toyunda iştirak etdim. Sadəcə, son dəfə olaraq gözlərinə baxmaq və mənə verdiyi üzüyü özünə qaytarmaq istəyirdim. Belə də etdim. İstədim ki, gözlərimdə ona olan sonsuz sevgimi və nifrətimi duysun.*

*Artıq həyatımda Rüfət yox idi. Rüfətsiz ötüb-keçən günlərə alışmaq çox çətin idi. Mənə qalan o şirin xatirələr, onunla keçirdiyim xoş günlər, qəmli-kədərli göz yaşlarım və bitib-tükənməyən həsrətim oldu. Rüfətlə ayrılığımızdan bir il keçirdi. Buna baxmayaraq, hələ də onu qəlbimdən silib ata bilməmişdim. Çünki onu həm sevir, həm də nifrət edirdim.*

*Bu acı xatirələri Zaurla tanış olduqdan sonra unutdum. Onunla tanışlığımız çox maraqlı idi.*

*Yağmurlu bir payız günündə işdən evə gedirdim. Elə yolun kənarında durub marşrut gözləyirdim ki, bir maşın sürətlə yanımdan keçib bütünlüklə paltarımı, üst-başımı palçıqlı su içində qoydu. Hirsimdən az qalırdım dəli olum. Amma o, geri qayıdıb maşından düşdü və mənə yaxınlaşıb üzrxahlıq etdi. Bundan sonra mübahisəmiz başladı. Sonra o mənə maşına əyləşməyimi və məni evimizə qədər aparmaq istəyini bildirdi. Bu çirkli paltarda başqa yolum yox idi. Buna görə mən razılaşmalı oldum. Bu tanışlıqdan sonra onu tez-tez görməyə başladım. Münasibətlərimiz getdikcə çox səmimi bir dostluğa çevrildi. Onu görmədiyim gün qanım çox qaralır, gözlərim hey onu axtarırdı. Bir gün o mənə öz sevgisini və mənimlə evlənmək istəyini bildirdi. Qısa müddət ərzində elçi göndərib valideynlərimin razılığını aldı. Bundan sonra evdə kiçik bir nişan etdik. Mən özümü çox xoşbəxt hiss edirdim, çünki nişanlanmışdım və sevildiyimə inanırdım.*

*Lakin bu sevincim də çox uzun sürmədi. Artıq bir ildən çox idi ki, Zaurla nişanlı idim. Evdə valideynlərim buna narazılıqlarını bildirdilər. Çünki bü müddət ərzində Zaurun valideynlərini nə qədər qonaq çağırdıqsa bizə gəlmədilər. Bu məsələ atama çox pis təsir edirdi. Onların bu hərəkətlərini hörmətsizlik kimi qəbul edirdi. Zaurdan bunun səbəbini soruşduğum zaman hər dəfə bir bəhanə edib sualıma cavab vermirdi.*

*Günlər keçdikcə artıq hiss edirdim ki, Zaurun mənə qarşı münasibəti soyuqdur. O, nə üçünsə hər dəfə məndən qaçırdı. Bütün bunları atam hiss etdi və araşdırıb onun qardaşları ilə tanış oldu. Məlum oldu ki, bütün bunlardan onların heç xəbəri də yox imiş. Çünki Zaur evli imiş və 4 yaşında bir oğlu da varmış. Nişanımızda və elçilikdə valideyn qismində bizə gələnləri isə Zaur pulla tutmuşdu. Bütün bunları eşitdikdən sonra çox böyük psixi sarsıntı keçirərək bir müddət xəstəxanada yatdım. O qədər əzab çəkdim ki, özümü öldürmək və bütün acılarıma son qoymaq istəyirdim. Lakin bu ümidsiz anlarımda hər zaman yanımda ailəm, dostlarım oldular və məni yalnız buraxmadılar. Bu dəstəkləri üçün onlara qəzetiniz vasitəsilə sonsuz sevgilərimi yetirirəm.*

*Mən əmin oldum ki, sevgimə, məhəbbətimə cavab verən və bu sevgimə layiq olmayan biri üçün ölməyə dəyməz. Bu yaşadığım həyat hekayəmi isə Allahın yazdığı bir yazı kimi qəbul edirəm.*

***Arzu (Bakı)***

*Hazırladı: Günay*

ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33



# Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya

# "MƏNİ VƏSF ET, ŞAİR, YALVARIRAM, ÖLÜMƏ GEDİRƏM…"

… Dünya elə öz axarı ilə gedirdi. İnsanlar da həmin insanlar idi: ya diləndikləri, ya da elə dilənmədikləri kimi ömür karvanını sürürdülər. Bakıda isə… Bakıda isə yüzlərlə, minlərlə gözəl qızlar arasında Almaz adında bir qız vardı. Bu qız istər zahiri görkəminə, istərsə də təbiətinə görə qalan bütün həmyaşıdlarından fərqlənirdi. Özünəməxsus gizli aləmi vardı bu qızın. Həm də çox istedadlı idi. Elə bu istedad onu Əzim Əzimzadə adına rəssamlıq məktəbinə gətirdi. Gözəl rəsmlər çəkirdi. Müəllimləri də onun böyük rəssam olacağına şübhə etmirdilər. Amma bir gün heç kimin gözləmədiyi bir vaxtda bu qız rəssamlıq məktəbini atdı və elə həmin il Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olundu. Görünür, onun gizli dünyası özünü rəssam fırçasında tapa bilməmişdi. Amma o, universitetin tarix fakültəsi ilə də qane ola bilmirdi. Yenə günlərin birində Almaz Azər adlı oğlan tanış olur. Azər Süleymanov Moskvada kinorejissorluğu bitirib Bakıya qayıtmışdı. O, təsadüfən gözəl Almazla rastlaşır və ona aktrisa olmağı məsləhət görür. Almaz kükrəyən çay kimi elə bil məcrasına tuş gəlir. Beləliklə, sevdiyi adamla sevdiyi sənət eyni vaxtda daxil olur həyatına. O, kinostudiyada Adil İsgəndərovun kursuna düşür. Adil müəllim ona "sən gözəl aktrisa olacaqsan" deyir. Bu minvalla iki insan taleyinin birgə yolu başlayır. Nə yazıq ki, Azər Süleymanovla Almaz Əsgərovanın həyat yolu çox amansız, qısa olur.

Almaz kinoda bir-birinin ardınca maraqlı obrazlar yaradır: "Qanun naminə"də Salamatovun həyat yoldaşı, "Mən ki gözəl deyildim"də Elmira, "Ulduzlar sönmür"də Fatimə obrazlarını ifa edir. Daha sonra tamaşaçı onu "Bir cənub şəhərində", "Məhəbbət-məhəbbət", "İstintaq davam edir", "Uşaqlığın son gecəsi", "Musiqili Azərbaycan" filmlərində görür. Ustadı Adil İsgəndərov isə onu "Vaqif" filmində Xuraman rolu üçün hazırlayırdı. Amma rejissorun ölümü bu filmin həyata gəlməsinə mane oldu. Həmin illərdə aktrisa "Tacikfilm"də "Rüstəm və Söhrab" filmində baş rollardan birinə çəkildi. Ardınca "Mosfilm"də və "Ukraynafilm"də maraqlı obrazlar yaratdı. Bu filmlərdən sonra Almaz taleyinin ən yaddaqalan, nə yazıq ki, son obrazına həyat verdi: "Nəsimi" filmindəki Şəmsə.

Həsən Seyidbəyli Şəms obrazı üçün qəşəng, həm də ağıllı qız axtarışında ikən Almazla rastlaşıb, onu ürəklə bu rola dəvət etmişdi. Aktrisanın ən unudulmaz obrazı da elə bu oldu - "Nəsimi"dəki Şəms.

Bu illər ərzində Azərlə Almazın bir oğulları da dünyaya gəlmişdi. Adını İlham qoymuşdular ki, iki yaradıcı insanın bir parçası olmuş bu uşaq onların ilham pərisi olsun.

### "Adı Şəms olan göylərdə qərar tutsun gərək"

Bu sözləri onun son tərəf-müqabili Teymurun oğlu Miranşah deyir. Onu da deyir ki, səni özümlə aparası oldum, Şəms! Təsadüflər bəzən insan həyatında misilsiz iz qoyur, rol oynayır. Bəlkə Miranşahın dilindən Almazı elə ölümün özü çağırırmış…

Bəli, gələn bir gün getməlidir. Amma vaxtsız ölüm, vədəsiz ayrılıq yandırır adamı.

Almaz Əsgərovanın bacısı Səmayə xanımın xatirələrindən: "Azərlə Almaz bir-birilərini əfsanəvi məhəbbətlə sevirdilər. Yeganə övladları hər ikisinin canı idi. Bu üç varlıq elə bil bir canda nəfəs alırdı. Hər ikisi çox kövrək, həssas adam idi. Onları real həyat qane etmirdi, bəyənmirdilər bu həyatı, elə bil başqa dünyada bir başqa dünya üçün doğulmuşdular. Almaz bir filmdə də Azərsiz çəkilməyib. Onun məsləhətləri, tənqidi Almaza hər zaman xoş idi. Hər yerdə, hər zaman birlikdə olardılar. Yalnız bircə dəfə ayrı düşdülər… Azər hansısa iş üçün Moskvaya getdi və…tabutda geri döndü." O gündən Günəş rolunun əvəzsiz ifaçısının günəşi batıb. Hamıdan qaçıb. Dost-tanışdan, qohum-əqrəbadan, sevimli sənətindən də sevimli can dostundan ayrıldığı kimi ayrılıb, çəkilib öz iç dünyasına. O dünyasına ki, Azərdən qeyri bir kimsəyə qapısı açıq deyildi. Azərdən başqa kimsə daxil ola bilməzdi. Sənətindən Azərindən ayrıldığı üçün ayrılır. "Razı olmaram ki, Azəri yanımda görməyib kimsə mənə başqa gözlə baxsın. Azər yoxsa, mən də yoxam" fikrilə tənhalığa üz tutub. Onu Milli Dram Teatrına dəvət ediblər. "Mən səhnədən birdəfəlik getmişəm", - deyə cavab verib. Hansısa verilişə qonaq sifətilə belə getməyə razı olmayıb.

### "Səni məndən soruşsalar nə deyim…"

Bu misralardan qopan sualdan qorxurmuş kimi Almaz Azərsiz bir dəfə də olsun gözə görünmədi. Qapalı həyat isə onu məhvə sürükləyirdi. Elə bil bilə-bilə getdi bu uçuruma doğru. Azərinə qovuşmaqçün dibsiz qaranlığa uçaraq getdi. Amansız xəstəliyə düçar olan Almaz düz on bir ay əzablar içində yaralı quş tək çırpındı. 1949-cu ildə dünyaya göz açan bu gözəl pəri 1988-ci il avqustun 20-də dünyaya son dəfə baxdı. Azərsiz dünyaya gözlərini qapadı. Qəlbini qapadığı kimi. Sevgili Azəri bir də görmək ümidilə ahəstə-ahəstə o gözəl gözlərini yumdu…



### "Dövlət bəyin ölüsü də gözəldir"

Almaz xanım iki il böyük rejissor Adil İsgəndərovun kinostudiyadakı aktyorluq kursunda təhsil alır. Özü də rejissor xanımı idi. Amma heç bir zaman sənətində bundan istifadə etmədi. Çünki ucaboy, yaraşıqlı, gül çöhrəyə malik olduğu kimi, daxilən də zəngin, səviyyəli və sənət baxımından istedadlı bir insan idi. Almaz xanım lirik şerlər də yazardı, pianoda çalardı, gözəl rəsmlər çəkərdi. O, qısa bir ömür yaşadı, ancaq bu ömürdə sərt, boz günlər çox oldu…

1970-ci ildə özündən on il böyük Azərlə ailə həyatı qurdu. Ölüm onları heç on il birgə yaşamağa qoymadı. Almaz isə oğlu İlhamın doğum günündə yaxınlarını gözüyaşlı qoydu. Xəstə yatağında o məşum xəstəliklə əlləşəndə də gözəl idi. Həmişə zahiri görkəmilə çoxlarından seçilmişdi. Ölümü ilə də seçildi. Dodaqlarında təbəssüm əbədi dondu. Özü "Nəsimi"də necə də demişdi: "Dövlət bəyin ölüsü də gözəldir". Bu bahar çiçəyi ölüm anında da gözəl idi…

**Xatırladtı:** *Xatirə Əsilbəyli*

# HƏR CÜMLƏ BİR XƏBƏR

*Londonun "Çelsi"si, İtaliya "Yuventus"unun yarımmüdafiəçisi Canluka Zambrottanı öz heyətinə qatmaq fikrindədir. Bunun üçün ingilislər turinlilərə 31 milyon avro təklif edir.

*Hazırda "Çelsi"nin baş məşqçisi vəzifəsində çalışan portuqaliyalı mütəxəssis Joze Mourinyonun sözlərinə görə, UEFA ona və komandasına heç bir cəza tədbiri tətbiq etməyəcək.



*Fransa millisi və Münhen "Bavariya"sının müdafiəçisi Villi Sanyol mövsümün sonunda İngiltərənin "Mançester Yunayted" klubuna keçə bilər.

*Argentinanın "River Pleyt" klubunun futbolçuları komanda rəhbərliyi qarşısında şərt qoyub. Əvvəlki borclar ödənilməsə, futbolçular növbəti oyunda yaşıl meydana çıxmayacaqlar.

*İspaniyanın Bilbao şəhərində keçirilən beynəlxalq şahmat turnirində həmyerlimiz Azər Mirzəyev 6 xal toplayaraq 3-cü yerə layiq görülüb.

*İngiltərənin "Mançester Yunayted" klubunun rəhbərliyi hazırda komandanın qapçılarından razı deyil. Buna görə də klubun seleksionerləri gələn mövsüm üçün qapıçı ovuna çıxıblar. "Qırmızı şeytanlar"ın ("Mançester Yunayted"i belə də adlandırırlar) maraq dairəsində ispaniyalı İker Kasilyas, İtalyia "Parma"sından Sebastyan Frey, Milan "İnter"indən Toldo və "Çelsi"nin ikinci qapıçısı Kudiçinin adları da var.

*Basketbol üzrə Azərbaycan çempionatının final matçlarında Bakının "Qala" və "Qərb Universiteti" komandaları qarşılaşacaq.

*Hazırda Türkiyənin "Beşiktaş" klubunun şərəfini qoruyan Sərgən Yalçın mövsümün sonunda ya Qətər klublarından birinə, ya da Ukraynanın "Şaxtyor" (Donetsk) komandasına keçə bilər.

*Ağdamın "Qarabağ" klubu bolqarıstanlı İvan Koromanov və serbiyalı Vladimir Rodanoviçlə mövsümün sonuna qədər müqavilə bağlayıb.

*Azərbaycanı təmsil edən fiqurlu konkisürənlər Kristin Freyzer və İqor Lukanin cütü Moskvada keçirilən fiqurlu konkisürənlərin növbəti dünya çempionatında ilk 15-liyə daxil olaraq 2006-cı ildə İtaliyanın Turin şəhərində keçiriləcək Qış olimpiya Oyunlarına vəsiqə qazanıblar.

*İstanbulun "Beşiktaş" klubunun baş məşqçisi Rza Çalımbay Fransaya qısa səfər edib. Onun məqsədi hazırda "Sent Etyenn"də icarə əsasında çıxış edən, əslən isə "Bordo"ya mənsub olan qanalı Paskal Feynduononu komandasında görməkdir.

*"Beşiktaş" klubundan gələn xəbərlərə görə, komanda mövsümün sonunda norveçli Con Karyu və ispaniyalı Xuanfranla yollarını ayıracaq.

*Hazırda İngiltərənin "Bolton" klubunun şərəfini qoruyan ispaniyalı tanınmış müdafiəçi Yerro gələn mövsümdən vətənində çıxış etməyi planlaşdırır.

*İtaliyanın "Bolonya" klubunu çalışdıran Karlo Matsone gələn mövsümdən "Roma", "Liverno" və ya "Fiorentina" klublarında baş məşqçi vəzifəsinə gələ bilər.

## Maradona futbola qayıdır



Əfsanəvi argentinalı futbolçu Dieqo Armando Maradona görünür sağlamlığını bərpa edib. Ötən cümə axşamı Argentinanın ən güclü klublarından olan "Boka Xuniors"un prezidenti Maurisio Makri Maradona ilə görüşüb. Üç saatlıq qapalı söhbətdən sonra komanda rəsmiləri məşhur futbolçuya klubda rəhbər vəzifələrdən birinin təklif olunmasını açıqlayıblar.

Görüşdən sonra jurnalistlərə cavab verən Dieqo dəqiq bir söz deməsə də, Makrinin təklifi üzərində fikirləşəcəyini bildirib. Argentina mətbuatı isə Maradonanın ya "Boka Xuniors"un gənclərdən ibarət komandası ilə işləyəcəyini, ya da klubda idman direktoru postuna yiyələnəcəyini bildirirlər.

## Eriksson heyəti açıqladı

Martın 30-da Londonda İngiltərə milli komandası ilə qarşılaşacaq Azərbaycan millisinin rəqibinin baş məşqçisi isveçli Sven Qoran Eriksson matçda iştirak edəcək futbolçuların siyahısını açıqlayıb. 24 oyunçudan ibarət heyətdə ən çox futbolçu ilə "Mançester Yunayted" klubu təmsil olunub - 5 nəfər. "Çelsi" ilə "Tottenhem" isə yığmaya hərəyə 3 nəfər göndərib. Zədə üzündən Sol Kempbell ilə Alan Smit bu dəfə yaşıl meydançaya çıxmayacaqlar. İndi isə tam heyətlə tanış olun:

**Qapıçılar:** Devid Ceyms ("Mançester Siti", İngiltərə), Pol Robinson ("Tottenhem", İngiltərə), Robert Qrin ("Norviç", İngiltərə).

**Müdafiəçilər:** Rio Ferdinand, Fil Nevill, Qarri Nevill və Ues Braun (hamısı "Mançester Yunayted", İngiltərə), Con Terri ("Çelsi", İngiltərə), Cimmi Karrager ("Liverpul", İngiltərə), Lesli Kinq ("Tottenhem", İngiltərə), Eşli Koul ("Arsenal", İngiltərə).

**Yarımmüdafiəçilər:** Kiron Dayer, Cermen Cenas (ikisi də "Nükasl", İngiltərə), Frenk Lempard ("Çelsi", İngiltərə), Stiven Cerrard ("Liverpul", İngiltərə), Stüart Dauninq ("Midlsbro", İngiltərə), Devid Bekhem ("Real", Madrid, İspaniya), Ouen Harqrivz ("Bavariya", Münhen, Almaniya).

**Hücumçular:** Co Koul ("Çelsi", İngiltərə), Endi Conson ("Kristal Pelas", İngiltərə), Ceremi Defo ("Tottenhem", İngiltərə), Emil Heski ("Birmingem", İngiltərə), Ueyn Runi ("Mançester Yunayted", İngiltərə) və Maykl Ouen ("Real", Madrid, İspaniya).

### Moskva "Spartak"ının sabiq hücumçusu MKT "Araz"ın formasını geyə bilər

İmişlinin MKT "Araz" klubu vaxtilə Moskvanın "Spartak" klubunun şərəfini qorumuş hücumçu Artyom Bezrodnıy ilə danışıqlar aparır. Məsələ gündəmdə olsa da, hələlik tam aydınlıq yoxdur. Rusiyalı futbolçunun "Araz"a gəlməsi ayın axırında bəlli olmalıdır.

# Futbol. Ölkə çempionatı

### 24-cü tur

**"Xəzər"** (Lənkəran) - **"Göyəzən"** (Qazax). **3:0** (S.Əliyev, 48, O.Dərəlioğlu, 68, A.Qurbanov, 78)

**"Neftçi"** (Bakı) - **MKT "Araz"**. **2:2** (G.Adamiya, 16, D.Çordaş, 78; F.Luis Ramin, 20, M.Tomas, 33)

**"Karat"** (Bakı) - **"İnter"** (Bakı). **3:2** (A.Mazinçuk, 5, K.Cebisaşvili, 40, G.Angel, 84; L.İdaxor, 3, V.Makovski, 45)

**"Gəncə"** (Gəncə) - **"Gənclərbirliyi"** (Sumqayıt). **6:1** (E.Qurbanov, 18, M.Xutsişvili, 38, 40, 63, 78, İ.Bereya, 56; E.Nikiema, 89)

**"Ədliyyə"** (Bakı) - **OMİK** (Bakı). **0:6** (R.Sadıqov, 28, R.Fərəczadə, 64, 75, R.Ağayev, 71, V.Vəliyev, 83, E.İmanquliyev, 89)

Bombardirlər: 18 - Z.Ramazanov ("Karvan", Yevlax), 15 - S.Əliyev ("Xəzər").

### Növbəti tur (25-ci)

*2-3 aprel*

"Göyəzən" - "Gəncə"
"Karat" - "Şahdağ-Samur" (Qusar)
"İnter" - "Ədliyyə"
OMİK - "Neftçi"
MKT "Araz" - "Qarabağ"
"Bakılı" (Bakı) - "Xəzər"
"Gənclərbirliyi" - "Turan" (Tovuz)
"Şəmkir" (Şəmkir) - "Bakı" (Bakı)
"Karvan" - "Şəfa" (Bakı) +:- (3:0)

### Turnir cədvəli

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. "Qarabağ" | 24 | 18 | 3 | 3 | 50-15 | 57 |
| 2. "Neftçi" | 24 | 16 | 5 | 3 | 34-13 | 53 |
| 3. "Xəzər-L". | 22 | 15 | 4 | 3 | 43-10 | 49 |
| 4. "İnter" | 24 | 14 | 7 | 3 | 33-16 | 49 |
| 5. "Karvan" | 23 | 14 | 6 | 3 | 40-15 | 48 |
| 6. "Bakı" | 23 | 14 | 6 | 3 | 36-11 | 48 |
| 7. "Turan" | 23 | 13 | 7 | 3 | 40-15 | 46 |
| 8. MKT "Araz" | 24 | 12 | 6 | 6 | 25-15 | 42 |
| 9. "Karat" | 24 | 8 | 4 | 12 | 26-42 | 28 |
| 10. "Gəncə" | 24 | 7 | 7 | 10 | 27-29 | 28 |
| 11. "G.Birliyi" | 24 | 7 | 5 | 12 | 25-41 | 26 |
| 12. "Şəmkir" | 24 | 6 | 5 | 13 | 26-33 | 23 |
| 13. "Göyəzən" | 24 | 5 | 6 | 13 | 18-31 | 21 |
| 14. "Şahdağ-S." | 23 | 5 | 6 | 12 | 20-35 | 21 |
| 15. OMİK | 24 | 4 | 8 | 12 | 16-26 | 20 |
| 16. "Ədliyyə" | 24 | 4 | 3 | 17 | 12-42 | 15 |
| 17. "Bakılı" | 24 | 2 | 5 | 17 | 13-43 | 11 |
| 18. "Şəfa" | 24 | 2 | 1 | 21 | 16-65 | 7 |

Bombardirlər: **18**-Z.Ramazanov («Karvan»), **15-**S.Əliyev («Xəzər»)

## "Foppapedretti" Çempionlar Liqasının qalibidir



Ötən nömrələrimizdən bildiyiniz kimi, Novruz bayramı günlərində qadın voleybolçular arasında Avropa Çempionlar Liqası turnirinin "Dördlər final"ı keçirilib. Sevimli "Azərreyl" klubumuzun bu mövsüm həlledici mərhələdə iştirakı olmadan keçirilən turnirdə İtaliyanın "Foppapedretti", "Asistel Novara", həmçinin Fransanın "Kann" və İspaniyanın "Marixal Tenerife" klubları mübarizə aparıb.

Tenerife şəhərində yarımfinal matçlarında heç bir gözlənilməz nəticə qeydə alınmayıb. Azərbaycan voleybol məktəbinin iki yetirməsinin çıxış etdiyi "Kann" klubu (Yelena Şabovta ilə Viktoriya Ravva) ilk setdə rəqibinə qalib gəlsə də, sonradan "Asistel" voleybolçuları matçı öz xeyirlərinə başa çatdıra biliblər - 3:1 (22:25; 25:21: 25:20; 25:22). Digər ikidə bir final qarşılaşmasında meydan sahibi - "Tenerife", "Foppapedretti" ilə görüşüb. Təcrubəli italyan voleybolçuları çətinlik çəkmədən 3:0 (26:24; 25;18; 25:16) hesabı ilə qalib gələrək finala vəsiqə qazanıb.

Həlledici matçda öz həmvətənləri - "Asistel" tərəfindən heç bir müqavimət görməyən "Foppapedretti" 2004/2005-ci il qadın voleybol Avropa Çempionlar Liqası Kubokuna sahib olub - 3:0 (25:18; 25:16; 25:17).



## "Neftçi" Elşən Qəmbərovdan ayrıldı

Ölkə çempionatının sonuncu turunda İmişlinin MKT "Araz" klubu ilə matçda, əvəzlənməsinə etiraz olaraq formasını çıxarıb yerə atmaq Bakının "Neftçi" komandasının təcrübəli futbolçusu Elşən Qəmbərova baha başa gəldi. Dərhal oyundan sonra bakılıların baş məşqçisi Ağasəlim Mircavadov onun bu hərəkətinə görə komandadan azad olunduğunu bəyan etdi.

# VİKTORİNA

**Hörmətli oxucular, əgər siz futbolu ürəkdən sevir, öz güc və biliyinizə əminsinizsə, bizim viktorinada iştirakınız vacibdir. Viktorinanın şərtinə görə, hər 3 ayın qalibini hədiyyə (musiqi mərkəzi) və qəzetimizdə müsahibə gözləyir. Bu müddət ərzində ən çox xal toplayan iştirakçı qalib elan olunacaq. Hər düzgün cavab üç xalla qiymətləndiriləcək. Viktorina 12 turdan ibarət olaraq (hər ay 4 tur) keçiriləcək. Cavabları 12-ci turun sonuna qədər e-meyl, (**E-poçt: newspaper@khamsa.az**), redaksiyaya gətirməklə, məktub və ya 470-03-33 nömrəli telefona zəng etməklə çatdırmaq olar.**

### 4-cü tur

**1. Qitələrarası Kubokun ilk qalibi hansı komandadır?**
**A.** "Real" (Madrid, İspaniya), **B.** "Penyarol" (Uruqvay), **S.** "Benfika" (Portuqaliya)

**2. Futbol üzrə 1982-ci il dünya çempionatında "Qızıl top" mükafatını alaraq kim turnirin ən güclü futbolçusu adına layiq görülüb?**
**A.** Sokrates (Braziliya), **B.** Dieqo Maradona (Argentina), **S.** Paolo Rossi (İtaliya)

**3. 1968-ci il "Qızıl butsa" mükafatına kim sahib oldu?**
**A.** Eysebio ("Benfika", Portuqaliya), **B.** D.Best ("Mançester Yunayted", İngiltərə), **S.** F.Albert ("Ferensvaroş", Macarıstan)

**4. 1954-cü il futbol üzrə dünya çempionatında hansı ölkə qızıl medallara sahib oldu?**
**A.** AFR, **B.** Braziliya, **S.** İsveç

**5. Sankt-Peterburqun "Zenit" komandası neçənci ildə yaranıb?**
**A.** 1930, **B.** 1925, **S.** 1929

**6. Braziliyanın "Korintians" klubunun baş məşqçisi kimdir?**
**A.** Leao, **B.** D.Passarella, **S.** L.Menotti

**7. Argentinanın futbol üzrə milli çempionatının güclülər dəstəsində neçə komanda çıxış edir?**
**A.** 18, **B.** 22, **S.** 20

**8. 1996-cı il futbol üzrə Rusiya milli çempionatında çempion adını hansı komanda qazandı?**
**A.** "Lokomotiv" (Moskva), **B.** "Spartak" (Moskva), **S.** OMİK (Moskva)

**9. 2004/2005-ci il İtaliya milli çempionatının "A" seriyasının 28-ci turunda "Palermo" - "Udineze" matçı hansı hesabla başa çatdı?**
**A.** 5:1, **B.** 1:5, **S.** 3:3

**10. Məşhur braziliyalı futbolçu, 1970-ci il dünya çempionu Jairzinyonun tam adı necə oxunur?**
**A.** Jair Ventura Filyo, **B.** Jair Karlos Migel, **S.** Jair Dede Montero

# Fevral Viktorinasının nəticə və cavabları

***Ay ərzində keçirilən dörd turdan ibarət fevral viktorinasında iştirak edən oxucularımız arasında heç kim bütün sualların cavabını tapa bilməyib. Onların arasında ən yüksək nəticəni* ABBASOV ORUC SULTAN *oğlu göstərib. O, mümkün 120 xaldan 108-ni toplayaraq idman viktorinasının qalibi adını qazanıb.***

***Təbrik edirik!***

***İştirakçılardan xahiş olunur ki, suallara cavab verərkən telefon və ya ünvanlarını redaksiyaya təqdim etsinlər.***

**CAVABLAR**

**1-ci tur**

**1 -** Markeciani
**2 -** Uruqvay
**3 -** 19
**4 -** 1966
**5 -** Masopust
**6 -** Komandanın nəticələri rəhbərliyi təmin etmədi
**7 -** Ələkbər Məmmədov
**8 -** 1897
**9 -** Macarıstan
**10 -** AFR

**2-ci tur**

**1 -** "Mayns"
**2 -** Bobbi Mur
**3 -** 45 milyon avro
**4 -** "Ekip", Qabriel Ano, 1955-ci il
**5 -** 1905
**6 -** Əbdülqəni Nurməmmədov
7 - Kaçalin və Qulyayev
**8 -** 6-cı
**9 -** "Spartak" (Moskva)
**10 -** "Barselona"

**3-cü tur**

**1 -** Fernando Qomeşin şərəfinə
**2 -** 6-cı saniyə
**3 -** Belçika
**4 -** İspaniya
**5 -** A.Mircavadov
**6 -** Rinat Dasayev
**7 -** 1949-cu il
**8 -** "Penyarol"
**9 -** Braziliya
**10 -** Paolo Rossi

**4-cü tur**

**1 -** 1972-ci il
**2 -** Artur Antunyes Koimbra
**3 -** İtaliya
**4 -** 1957-ci il
**5 -** 1863-cü il
**6 -** "Seltik"
**7 -** 922.000
**8 -** "Cenoa"
9 - Yensen
10 - Argentina

**Hazırladı:** *Azər Sarablı*

ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33

# SKANVORD

1 | Nərd | Şəhər | Hektar | Mərsiyə oxuyan | Ədva | Balıq




Gələcək | 2 | Vətən | Quliyeva | Zolya | Nöqsan

1 | Üstün | İsmayılova

Cihad eləyən | Yem | Villa | Kral.... | Marqarin

Xeyir | İbrahim | Bədən

Dəbdəbə | Bağlayıcı | Mərd kimi | İlə | Peşəkar boksçu

Bayraqdar | Buğlama | Valideyn | Vals | Mahnı | Mə..

Səbat | Xalq | Qüdsi | Vacib

Alatoran | Adət | Sa.. | Zirvə | Səfərov

Dahi şair | Mədar | Yaxşı | Agentlik | Kristi

Sümük | Vaxt | Fut-çu | Nəriman | Qaradağ | Tündlük | Ərəb hərfi | Ad



Alçaq | Servis | Ağartı | Sakit

İtil | Bucaq | Yorulmaq | Minik

Maşın | Əzvay

Metal | El | İdman firması | Kəskinlik

Çay | Toxunulmaz | Siqaret | Heyvan | Telli

Emu | Yeni sözönü | Putin | Yay | Kolt | Torpaq | Alaf | Sətəlcəm

Nümunə | Bioloq | Heykəltəraş | Üstü papaqlı | Təyyarə

Lenin | Xırda | Yurd | Peç

Çəkmə | Yağış | Sezar | Fizik | Barbi | Valyuta | Ağac

İsə | Dağ | Robotu kəşf edən




Limon | Rəml | Məsafə | Tu | Zalım | TV | Şair

Tabe | Usta | Qoxu

Arx | Güləş fəndi | İrq | Çay | Variant | Əmək

# Saçlara qulluq



## Saçlara gündəlik qayğı

*Gözəl parlaq saçlar nəinki qadının yaraşığıdır, həm də onun sağlamlığının nişanəsidir. Çox təəssüf ki, biz xanımlar saçlara qulluğa az vaxt ayırır, çox hallarda isə qadın salonlarında saçlarımızı formaya salmaqla kifayətlənirik. Saçlara isə uşaq yaşından diqqətlə qulluq etmək lazım gəldiyini heç ağlımıza belə gətirmirik. Bəzi hallarda uşaqlıqda fikir vermədiyimiz problemlər böyüyəndən sonra daha qabarıq şəkildə üzə çıxa bilər.*

Saçlara qulluğun ən əsas qaydası onları təmiz saxlamaqdır. Çirkli saçlar nəinki estetik cəhətdən pis görünür, eyni zamanda müxtəlif xəstəliklərin törənməsinə yol açır, çünki başın dərisinin cüzi zədəsi belə mikrobların orqanizmə daxil olmasına əlverişli şərait yaradır.

Saçların daraqla (şotka) daranması onlara qulluğun əsas şərtidir. Bu, başın dərisinin qan dövranını yaxşılaşdırır.

Hər gün başı seyrək dişli daraqla daramaq lazımdır, çünki belə daraq pırtlaşıq düşmüş saçı qırmır. Narın dişli daraqlar isə başda əmələ gəlmiş kəpəyi darayıb təmizləmək üçün xüsusi hallarda işlənir. Dəmir daraqlar saçı qırır və dərini qıcıqlandırır. Şotka ilə saçların dibini gün ərzində iki dəfə müxtəlif istiqamətlərdə daramaq lazımdır. Uzun saçları iki şotka ilə eyni vaxtda daramaq olar. Belə saçları donuz tükündən hazırlanan şotka ilə daramaq daha yaxşıdır.

Saçları darayan kimi daraq və şotkadan tüklər təmizlənir və həftədə ən azı bir dəfə sabunla yuyulur.

### Saçların yuyulması və qurudulması

Saçların yuyulmasında hansı vasitələrdən istifadə etməyinizin çox böyük əhəmiyyəti var. Belə ki, baş yuyulan su yumşaq və kifayət qədər ılıq olmalı, isti olmamalıdır. Başı yumaq üçün ən yaxşı su məhz yağış suyudur. Cod su ilə yuduqda isə saçların üstündə ərp qalır. Şampunlarda da suyu yumşaltmaq xüsusiyyəti var. Saçı yumşaltmaq üçün ən yaxşı şampun neytral şampunlardır, onların tərkibində başın dərisinə faydalı təsir göstərən maddələr var.

Başın yuyulması texnikasının da çox böyük əhəmiyyəti var. Əgər saçlarınızın



gözəl olmasını istəyirsinizsə, başınıza şampun çəkdikdən sonra ovxalayarkən çalışın ki, saçlarınız pırtlaşıq düşməsin. Bu, ən çox saçları uzun olan xanımlara aiddir. Onlar saçlarını elə yumalıdırlar ki, darayarkən tökülməsin.

Saçların düzgün qurudulmasının da yumaq kimi böyük əhəmiyyəti var. Saçları qurutmaq üçün ən yaxşı vasitə onların isidilmiş dəsmallarla qurudulmasıdır. Saçları çox isti fenlə qurutmaq olmaz. Tezliklə isti fen altında qurutmaqdansa, saçlarınızı azacıq ılıq fenin altında qurutmaq məsləhətdir. Gün altında olarkən başınızı yaylıqla örtün.

### Saçlarınız tökülür?

Gün ərzində müəyyən qədər (100) saç teliniz tökülürsə, narahat olmayın. Saç



tökülməsi yeni çıxan saçlarla uyğunlaşmaq üçün baş verir və normal hal kimi qəbul olunmalıdır.

Sadəcə olaraq, saçlarınızı qorumaq kifayətdir.

Əgər saçınız davamlı olaraq tökülürsə, bu halda mütləq bir tədbir görmək və ya kosmetoloqa müraciət etmək lazımdır. Çünki normadan artıq saç tökülməsinin əsasən 3 səbəbi var:

*****Yaz-yay aylarındakı iqlim dəyişiklіyi*

*****Hamiləliklə bağlı (xüsusilə də doğuşdan sonrakı 3 ay müddəti)*

*****Məsləhətsiz olaraq dietə başladığınız halda (arıqlamaq üçün diet)*

Saç tökülməsinin qarşısını almaq üçün



saçlara ən azı 3 ay müddətində müalicə etmək və xüsusi qulluq göstərmək lazımdır. Saçınızı qidalandırın. Unutmayın ki, saç kökünün qidalanması qəbul etdiyiniz qidayla sıx bağlıdır. Xüsusilə də H, B5, B6 kimi vitamin, mineral və qidalandırıcı maddələr qəbul edin.

**Saçınızı məhz saçınıza uyğun gələn və tez-tez yumaq məsləhət görülən şampunla hər gün yuyun.*

**Uşaq şampunundan istifadə etməyin. Bu, böyüklərin saçları üçün yetərsiz ola bilər.*

**Həftədə bir dəfə mütləq qidalandırıcı və nəmləndirici maskalardan istifadə edin. Bu, saçınızı həm kənardan gələn zərərli maddələrə qarşı qoruyar, həm də qüvvətləndirər.*

**Günəşdən və dəniz suyundan qoruyun.*

## Gözlər üçün istirahət

Gözlər üçün ən yaxşı istirahət məhz yuxudur. Gecə yuxusundan başqa, gərginlik tələb edən işdən sonra da (çox oxuduqda, yazdıqda, tikdikdə,



kompüterlə məşğul olduqda və s.) gözlərin əlavə istirahətə ehtiyacı var. Bu vaxt işi dayandırıb mütləq istirahət edin. Sakitcə oturmaq, düz önə baxmaq və ya gözləri yummaq məsləhətdir. Gözlərinizi yumub 10 dəqiqə uzansanız daha yaxşı olar.

### Göz əzələlərinin məşqi

**Birinci hərəkət:** başı çevirmədən sola, sonra sağa, yuxarı və aşağı baxın. Göz alması ilə əvvəl soldan-sağa, sonra sağdan-sola dairəvi hərəkətlər edin (hər hərəkət 4 dəfə təkrar olunmalıdır). Həmin hərəkətləri gözləri bağlı halda da yerinə yetirə bilərsiniz.

**İkinci hərəkət:** gözləri geniş açıb yuxarı baxın və 10-a qədər sayıb aşağı salın. Bu hərəkəti yerinə yetirərkən alnın qırışmamasına diqqət yetirmək üçün əlinizi alnınıza qoyun. Hərəkəti 8 dəfə təkrar edin.

**Üçüncü hərəkət:** gözləri açıb yuxarı və sola baxın, 10-a qədər sayıb göz qapaqlarınızı aşağı salın. Həmin hərəkəti yuxarı və sağa baxmaqla da yerinə yetirə bilərsiniz. Hərəkəti 10 dəfə təkrar edin və hər istiqamətə 5 dəfə baxın.

*Bu hərəkətləri göz əzələləri üçün səhər və axşam, eyni zamanda yataqda uzanmış halda etməyiniz məsləhətdir.*



## Mətbəxdəki işinizin yüngülləşməsi, yeməklərinizin daha ləzzətli olması üçün...

### Kremi hazırlamaq üçün



Kremi tez-tez qarışdırmaq üçün həm krem hazırladığınız qabı, həm qaşıqları, həm də kremi bir neçə dəqiqə soyuducuda saxlayın. Beləliklə, krem daha bərk olacaq və asan qarışacaq.

### Kərə yağını yumşaltmaq üçün

Bir paket kərə yağını yumşaltmaq üçün onu ya sürtgəcdən keçirin, ya da isidilmiş tavanın üstünə qoyun.

### Şokoladı əritmək üçün

Şokoladın çox isinməsini və ya topalaşma-



sını istəmirsinizsə, 1 paket plitka şokoladı bir neçə hissəyə ayırın. Sonra isti kofenin içinə töküb əridin. İki dad bir-birini tamamlayacaq. Beləliklə, daha ləzzətli şokolad hazırlaya biləcəksiniz, kremə də qata bilərsiniz.

### Balığı pullarından necə təmizləməli?

Balığı təmizləyərkən pulları mətbəxinizlə bir olmasın deyə, onu 1 dəqiqə müddətində qaynar suya salın. Beləliklə, pullar asanlıqla təmizlənəcək.



## Yumurtadan hazırlanan yeməklər



### İspanaqlı yumurta



1dəstə ispanaq,
3 ədəd baş soğan,
4 x.q. bitki yağı,
6 yumurta,
duz, istiot.

İspanağı yaxşı-yaxşı yuyub təmizləyin. Soğanı təmizləyib yuduqdan sonra incə doğrayın. Yağ, soğan və duzu tavaya töküb qapağını bağlayın. Vam odda 7-8 dəqiqə ərzində (hərdənbir qarışdıraraq) bişirin. Sonra ispanağı yarım santimetr qalınlığında doğrayın və soğana əlavə edin. Yumşalana qədər 10 dəqiqə müddətində bişirin. Yumurtaları qırıb tavaya əlavə edin. 5 dəqiqə müddətində bişirin.

### Qayğanaq

6 yumurta,
yarım stəkan süd,
1 stəkan un,
3 x.q. bitki yağı,
duz.

Yumurtaları qırıb dərin qaba tökün. Yumurta sarısı ağa qarışana-



dək çalxalayıb südü əlavə edin. Unu yumurta ilə süd qarışığına yavaş-yavaş qarışdıraraq tökün. Tavaya yağı töküb qızdırın. Yumurtalı qarışığı iki hissəyə ayırın. Birinci hissəni tavaya töküb hər iki üzünü qızardın. İkinci hissəni də eynən qızardın və bişən hissələri üs-üstə qoyub, üçbucaq formasında kəsin.

### Pomidor çığırtması

3 ədəd pomidor,
3 ədəd bibər,
1 ədəd soğan,
6 x.q. bitki yağı,
2 çay qaşığı duz,
6 yumurta,
1 çay qaşığı istiot.

Pomidor, bibər və soğanı təmizləyib yuduqdan sonra soğanı dairə şəklində incə doğrayın. Tavaya yağı töküb



soğanı qızardın. Qapağı bağlayıb 4-5 dəqiqə müddətində (hərdənbir qarışdıraraq) bişirin. Pomidor və bibəri kub formasında doğrayıb tavaya əlavə edin. Vam odda 7-8 dəqiqə müddətində bişirin. Sonra yumurtaları əlavə edin və 2-3 dəqiqə bişirin.

### Yumurtalı kartof

8 ədəd kartof,
2 ədəd soğan,
6 x.q. bitki yağı,
6 yumurta,
2 x.q. duz,
istiot.

Kartofu suda bişirdikdən sonra soyub sürtgəcdən keçirin. Soğanı soyub yuduqdan sonra incə doğrayın. Tavanı yağlayıb soğanı tökün. Vam odda 4-5 dəqiqə müddətində bişirin. Kartof, duz və istiotu



tavaya əlavə edib qarışdırın. Sonra yumurtaları əlavə edib 5 dəqiqə ərzində qızardın.

*Hazırladı: Günay*

ÜNVAN: indeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04 Tel./Faks: 470 03 33

# AZƏRBAYÇAN RƏQSİ AVSTRİYADA

**Azərbaycan Dövlət Rəqs Ansamblının solisti, Avstriya-Vyana cəmiyyətinin Bakı filialının rəhbəri, xalq artisti rəqqasə Təranə Muradova aprel ayının ortalarında Avstriyaya səfər edəcək. Bu səfər həm yaradıcılıq, həm də gəzinti xarakteri daşıyacaq. Təranə xanım həmişə bütün səfərlərində Azərbaycanın milli rəqslərini təbliğ etmiş, bu rəqslərin bütün gözəllik və incəliklərini dünya xalqlarına çatdırmaq yolunda səylə çalışmışdır. Bu səfərində də Təranə Muradovaya uğurlar arzulayırıq. Əminik ki, o, hər zamankı kimi bu dəfə də rəqslərimizi tanıtmaq və sevdirmək məqsədilə var qüvvəsilə işləyəcək. Ümumiyyətlə, bütün səhnə adamları bu yöndə az da olsa müəyyən işlər görsələr, Azərbaycan mədəniyyətinin inkişafına böyük xidmət göstərmiş olarlar.**




# Ruhəngiz tənbəldirmi?

**Öz şirin mahnıları, isti səsi, çəkildiyi "Baladadaşın ilk məhəbbəti" filmindəki roluna görə daim sevilən müğənni Ruhəngiz xanım Musəvi, məlum olduğu kimi, tez-tez efirdə görünmür. Bunun səbəblərini müğənni özü belə açıqlayır: "Efirdə görünmək üçün gərək bir çox tələblərlə razılaşasan. Səsi və səhnə mədəniyyəti olmayan, sənəti ucuzlaşdıran "müğənni"lər efiri zəbt edib. Güclü sponsorlar onlara yaşıl işıq yandırıb. Mən isə təmənnasız oxuyuram. Efirə pulla çıxmağı özümə yaraşdırmıram. Bu mənə yaraşmaz. Mən neçə illərin müğənnisiyəm." Ruhəngiz xanım klip çəkdirməyə də tələsmir. İndiki zamanda kliplərin reklam xarakteri daşıdığı fikrini önə çəkən müğənni hələ ki klip çəkdirməyə lüzum görmür. Müğənni son vaxtlar yeni-yeni mahnılar üzərində işləyir. Bir neçə bəstəkarla eyni zamanda çalışır. Eldar Mansurov, Cavanşir Quliyev, Nailə Mirməmmədli, Razim Paşayev, Novruz Aslanla müxtəlif səpgili mahnılar üzərində işləyən müğənni bu mahnıların da dinləyicilər tərəfindən seviləcəyinə əmindir. Diskinin və kasetinin olmamasını isə Ruhəngiz Musəvi bir az tənbəlliyi ilə əlaqələndirir. Hələ vaxt olduğunu, yəqin nə vaxtsa disk və kaset üzərində də işləyəcəyini vurğulayır.**

**Son zamanlar sənətində daha ciddi çalışan gənc və sevilən müğənni Lalə Məmmədova "Kölgən olaram" mahnısına çəkdiriyi klipinin bu yaxınlarda, yəni aprel ayında**

# "Kölgən olaram"

**təqdimat mərasimini keçirəcək. Müğənni rejissoru Fuad Əlişov olan bu klipin seviləcəyinə çox əmindir. Həqiqətən də, Fuad Əlişovun çəkdiyi kliplər həmişə maraqla qarşılanıb Yəqin ki, Lalənin əminliyi də elə bu üzdəndir.**
**Klipdə Lalənin tərəf-müqabili yoxdur. Müğənni klipin süjet xəttini açıqlamır, bunu tamaşaçılar üçün hələlik sürpriz kimi saxlayır. Klipi izləyəndən sonra, süjet xəttindən və yəqin ki, Lalənin kimin kölgəsi olmaq istədiyindən xəbər tutacağıq.**

## ZABİT NƏBİZADƏNİN SOLO KONSERTİ

*Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında xanəndə Zabit Nəbizadənin solo konserti olmuşdur. İki hissədən ibarət konsertdə xanəndə "Segah", "Humayun" təsniflərini, "Bayatı-şiraz" dəstgahını oxumuşdur. Müğənnini "Beytüs-səfa" musiqi qrupu müşayiət etmişdir.*

*Musiqisevərlər Z.Nəbizadəni hərarətlə qarşılamış, sənətkarlığını yüksük qiymətləndirmişlər.*

## AYSEL BEYNƏLXALQ MÜSABİQƏYƏ HAZIRLAŞIR

*Naxçıvan şəhərindəki Məmməd Məmmədov adına uşaq musiqi məktəbinin şagirdi Aysel Rzayevanin adı muxtar respublikanın musiqisevərlərinə yaxşı tanışdır. Klassik və milli musiqini fortepianoda məharətlə ifa edən Aysel Tbilisidə keçiriləcək II Beynəlxalq müsabiqəyə hazırlaşır. Zəhmət və istedadın bəhrə verəcəyinə əmin olan gənc ifaçı demişdir ki, onun üçün ciddi imtahan olacaq bu musiqi yarşını səbirsizliklə gözləyir.*

## FORTEPİANO KONSERTİ

*"Kapellhaus" Alman-Azərbaycan Mədəniyyət Birliyində fortepiano musiqisindən ibarət konsert olmuşdur. Konsertdə Bakı Musiqi Akademiyasının professoru Oqtay Abbasquliyevin tələbəsi Tutu Məmmədova çıxış etmişdir. Almaniyanın Azərbaycandakı səfirliyi, bir sıra xarici ölkə səfirlikləri diplomatlarının, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi konsertdə gənc pianoçu Baxın və Listin əsərlərini ifa etmişdir.*



# ASTROLOJİ PROQNOZ

**(20-27 mart, 2005-ci il)**

**QOÇ (21 mart - 20 aprel).** Bütün işlərdə ölçü həddini gözləyin. Nə vaxtınızı, nə pulunuzu, nə də ki, gücünüzü həddindən artıq israf etməyin. İşlərinizdə sizi uğurlar gözləyir. Həm işləyəndə, həm də dincələndə rejiminizi gözləməyə çalışın.

**BUĞA (21 aprel - 20 may).** Fiziki və əqli imkanlarınızdan eyni zamanda istifadə etməyiniz çox gözəl nəticə verəcək. Üzünüz güləcək, sevinəcəksiniz. Şəxsi həyatınızda bəzi problemlərlə qarşılaşa bilərsiniz. Yaranan problemləri qısa müddətdə həll etməyə çalışın.

**ƏKİZLƏR (21 may - 21 iyun).** Həyatdan nə istəyirsiniz? Buna konkret olaraq cavab tapın. Mücərrəd istək arxasınca gedib, gücünüzü tükətməyin. Ürəkaçan nəticə əldə etmək üçün ruhdan düşməmək və qətiyyətli olmaq lazımdır. Sevgi duyğularınız təmin ediləcək.

**XƏRÇƏNG (22 iyun - 22 iyul).** Ağlınıza çox maraqlı ideyalar gələcək. Bu fikirləri unutmamaq şərtilə onları həyata keçirə biləcək adamları əhatənizə toplayın. Gündəlik qeydlər aparmaq məsləhətdir. Bəzən zəruri məsələləri belə unudursunuz, diqqətli olmağınız məsləhətdir.

**ŞIR (23 iyul - 23 avqust).** Məxrəcinizin çoxaldığı, işlərin nisbətən ləng getdiyi vaxtda ruhdan qətiyyən düşmək olmaz. Kimə nə qədər verilibsə, bir o qədər də hesab soruşulur. Görünüşünüz əzəmətlidir, bunu işlərinizlə də doğruldun.

**QIZ (24 avqust - 23 sentyabr).** Ailə, iş, maddi vəziyyət sizi həmişə narahat edən üçbaşlı əjdahadır. İnsanlara qayğı ilə yanaşmağınız öz bəhrəsini verəcək. Gələcək fəaliyyətiniz üçün geniş imkanlar yaranacaq, fürsəti əldən verməyin.

**TƏRƏZI (24 sentyabr - 23 oktyabr).** İmkanlarınıza qiymət verib müxtəlif işgüzar əməliyyatlarda iştirak edin. Böyük ürəyə sahib olduğunuzu hər kəsə göstərin. Ətrafınızdakı adamlarla münasibətinizdən çox məsələlər aydınlaşa bilər. Xeyrinizə olmayan bir işə can atmayın.

**ƏQRƏB (24 oktyabr - 22 noyabr).** Ailə və məişət işlərində sizi böyük uğurlar gözləyir. Hərəkətlərinizin doğruluğuna inanacaq, maliyyə işlərini həll etməyə çalışacaqsınız. Öz yolunuzdan dönməyin. Reallaşmayan planlarınızı cəsarətlə həyata keçirəcəksiniz.

**OXATAN (23 noyabr - 21 dekabr).** Əmlak məsələlərini həll edəcəksiniz. hadisələrin gedişini öz məntiqinizlə qiymətləndirməyə çalışın. Hətta ən yaxın adamın məsləhəti belə çox vaxt sizin ziyanınıza ola bilər. Hisslərinizi ağlınıza tabe edin.

**OĞLAQ (22 dekabr - 20 yanvar).** Maddi gəlirinizi yüksəltmək üçün sizə heç nə mane olmayacaq. Vaxtınızı səmərəli keçirin. Başladığınız işi sona çatdırmağı vacib sayın, işi yarımçıq saxlamaq olmaz. Sözünüzü səmimiyyətlə deməyi bacarın. Mehribançılıq yaradın.

**DOLÇA (21 yanvar - 20 fevral).** Tənbəlliyi bir tərəfə atın. Sizi başa düşmürlərsə də, öz bacarığınızı göstərməyə çalışın. Dolaşıq məsələlərə baş qoşmayın, özünüzü çox ağıllı göstərməyə də cəhd etməyin. Bu, müdiriyyətin xoşuna gəlmir.

**BALIQ (21 fevral - 20 mart).** Sözü üzə deməyiniz şəxsiyyətinizi ələ verəcək. Maliyyə gəlirləri, demək olar ki, yoxdur. Yenə də borc almalı olacaqsınız. Nə qədər səxavətli olsanız, bir o qədər yaxşıdır.

**Bir məsələni də yaddan çıxarmayın ki, hər şey Allahın əlindədir.**

Təsisçi
Mürvət HƏSƏNLİ
*mhasanli@khamsa.az*

Baş redaktor
Ramazan QAFARLI
*editor@khamsa.az*

Redaktorlar
Xatirə ƏSİLBƏYLİ
Təbib ƏLİYEV
Məsul katib
Günay
Dizayner
Ləman

Fotomüxbir
Tural
Yayım meneceri
Vəli NURAYEV
Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Şəhadətnamə № 92
VÖİN: 1600086641

H/h.: 38090002310000
Texnikabankın Nəsimi filialı, kod 508579
"Xəmsə" jurnalının kompüter mərkəzində yığılıb, "Ekspress" mətbəəsində çap edilmişdir.

Redaksiyaya daxil olan əlyazmalar bir ay müddətində saxlanılır.
Redaksiya ilə müəlliflərin mövqeyi uyğun olmaya bilər.
Redaksiyanın ünvanına və *e-poçtuna* məktublarınızı göndərə bilərsiniz.

Ünvan:
İndeks: Az - 1096, Bakı ş., M.Əliyev küç., 2403/04
Tel./Faks: 470 03 33
Sifariş 041,
Sayı: 1000